AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 29 (1374), 10 - 16 iyul 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının

## Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, H 8, maddə 613; 2010, H 6, maddə 489; 2011, H 2, maddə 71; 2013, H 11, maddə 1281; 2014, H 4, maddə 340; 2015, H 5, maddə 507; 2016, H 3, maddə 420, H 12, maddə 2021; 2017, H 1, maddə 11, H 7, maddə 1272) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 8.0.6-1-ci və 8.0.6-2-ci maddələr əlavə edilsin:

"8.0.6-1. milli antidopinq qurumu;

8.0.6-2. "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan səlahiyyətlərin həyata keçirilməsi məqsədi ilə yaradılmış intizam qurumu, apellyasiya qurumu və terapevtik istifadəyə icazə qurumu;".

2. Aşağıdakı məzmunda 12-1-ci maddə əlavə edilsin:

"Maddə 12-1. Milli antidopinq qurumu

12-1.1. Milli antidopinq qurumu idmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumdur.

12-1.2. Milli antidopinq qurumu öz fəaliyyətini bu Qanun, "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, Ümumdünya Antidopinq Məcəlləsi, beynəlxalq standartlar, habelə onun vəzifələrini və hüquqlarını müəyyən edən digər normativ hüquqi aktlar, qaydalar və Nizamnaməsi əsasında həyata keçirir.".

3. Aşağıdakı məzmunda 42.2.4-1-ci maddə əlavə edilsin:

"42.2.4-1. milli antidopinq qurumunun təsdiq etdiyi antidopinq qaydalarına riayət etmək;".

4. Aşağıdakı məzmunda 43.2.3-1-ci maddə əlavə edilsin:

"43.2.3-1. milli antidopinq qurumunun təsdiq etdiyi antidopinq qaydalarına riayət etmək;".

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 iyun 2018-ci il.***

## "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1192-VQD nömrəli Qanununun tətbiqi və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 147 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

## Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1192-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. idmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizənin gücləndirilməsi, o cümlədən idmanda dopinq vasitələrindən və üsullarından istifadəyə görə məsuliyyətin sərtləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 147 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, H 8, maddə 623; 2015, H 8, maddə 909; 2016, H 7, maddə 1254, H 10, maddə 1645; 2017, H 12 (I kitab), maddə 2296; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 iyun tarixli 134 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.2-ci bənddə "10.3-cü maddəsinin ikinci cümləsində," sözlərindən sonra "12-1.1-ci," sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. həmin Qanunun 12-1.1-ci maddəsində qurum dedikdə Azərbaycan Milli Antidopinq Agentliyi nəzərdə tutulur.".

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 iyul 2018-ci il.***

# Basketbol məşqçilərinə beynəlxalq dərəcəli sertifikatlar təqdim olunub

İyulun 6-da Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondu, Beynəlxalq Basketbol Federasiyasının dəstəyi, MOK-un və Azərbaycan Basketbol Federasiyasının təşkilatçılığı ilə məşqçilər üçün texniki təlim kursunun iştirakçılarının təltifetmə mərasimi keçirilib.

Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Azərbaycan Basketbol Federasiyasının vitse-prezidenti Həsənağa Rzayev və Beynəlxalq Basketbol Federasiyasının eksperti Rajko Toroman iştirak edib.

*(ardı 2-ci səhifədə)*



# Yeni Günəşli qəsəbəsində şahmat məktəbinin açılışı olub

İyulun 5-də Suraxanı rayonu Yeni Günəşli qəsəbəsindəki "D" yaşayış sahəsində şahmat məktəbinin açılışı olub.

Şahmat məktəbi Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na əsasən Gənclər və İdman Nazirliyinin sifarişi əsasında tikilib.

Açılış mərasimində çıxış edən gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov Azərbaycanda böyük ənənələri olan şahmatın inkişafı istiqamətində görülən işlərdən danışıb. Ölkəmizdə idmanın inkişafına dövlət qayğısı siyasətinin ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayan nazir müavini qeyd edib ki, məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ötən əsrin 70-ci illərindən etibarən respublikamızın 70-dək şəhər və rayonunda Uşaq-Gənclər Şahmat məktəbləri istifadəyə verilib. "Sovet İttifaqı dövründə dünya şahmat tacının Azərbaycana gətirilməsində də Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından ötən müddətdə şahmatçılarımız müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında ölkəmizi layiqincə təmsil edərək yüksək nəticələrə nail olub. Zəka sahiblərimiz bu idman növü üzrə keçirilən yarışlarda 100-dən çox medal qazanıblar. Bu gün Azərbaycanda idmanın digər növləri kimi, şahmatın da inkişafı diqqət mərkəzində saxlanılır, ölkəmizdə yeni şahmat məktəbləri istifadəyə verilir. Azərbaycan dünyada yeganə ölkədir ki, şahmatın inkişafı ilə bağlı Dövlət Proqramı qəbul edilib.



Azərbaycanda şahmatın inkişafı ölkəmizin ümumi intellektual potensialını əks etdirir. Hazırda Azərbaycanda 25 beynəlxalq qrossmeyster, 16 beynəlxalq usta, 20 FİDE ustası, 15 beynəlxalq hakim və 16 FİDE hakimi var.

# İki güləşçimiz dünya çempionu adına layiq görülüb




İyulun 2-7-də Xorvatiyanın Zaqreb şəhərində keçirilən güləş üzrə yeniyetmələrin dünya çempionatına yekun vurulub.

Çempionatda iştirak edən yığma komandamızın üzvləri yarışları 8 (2 qızıl, 2 gümüş və 4 bürünc) medalla başa vurublar.

Məşqçi Vahid Məmmədovun rəhbərliyi altında mübarizə aparan sərbəst güləş yığmamız 3 (2 qızıl və 1 bürünc) medalla komanda hesabında 4-cü yeri tutub.

Məşqçilər Rövşən Umudov və Həsrət Məmmədyarovun rəhbərliyi altında dünya çempionatında 5 idmançı ilə təmsil olunan yeniyetmə qızlarımız yarışları 1 gümüş medalla başa vurublar.

Böyük məşqçi Bəhram Mürvətovun rəhbərliyi altında 7 güləşçi ilə yarışda iştirak edən yunan-Roma yığmamız 4 (1 gümüş və 3 bürünc) medal qazanıb.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Əbdül Nuriyev təmsil edib.

## Anons

"Çempionlar" turnirindən 11 medal

*Akademiyada elmi-praktiki konfrans keçirilib*

Səh. 2

## “İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının

## Q a n u n u

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, H 12, maddə 2041) aşağıdakı məzmunda 7.0.12-1-ci maddə əlavə edilsin:

“7.0.12-1. idmanda dopinqdən istifadənin qarşısının alınması, habelə qadağan olunmuş dopinq vasitələrinin qanunsuz dövriyyəsində iştirak edən şəxslər barədə məlumat almaq məqsədi ilə müvafiq icra hakimiyyəti orqanları ilə əməkdaşlıq etmək, o cümlədən məlumat mübadiləsini həyata keçirmək;”.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 iyun 2018-ci il.***

## “İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1191-VQD nömrəli Qanununun tətbiqi və “İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 447-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 dekabr tarixli 1158 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

## F ə r m a n ı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1191-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 447-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 dekabr tarixli 1158 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, H 12, maddə 2076) 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

“3. Müəyyən edilsin ki:

3.1. “İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 1.1.13-cü, 9-cu, 11.1-ci, 13-cü və 16-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi həyata keçirir;

3.2. həmin Qanunun 7.0.12-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi həyata keçirirlər.”.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 iyul 2018-ci il.***

## “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının

## Q a n u n u

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununu “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 736-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, H 8, maddə 613; 2010, H 6, maddə 489; 2011, H 2, maddə 71; 2013, H 11, maddə 1281; 2014, H 4, maddə 340; 2015, H 5, maddə 507; 2016, H 3, maddə 420, H 12, maddə 2021; 2017, H 1, maddə 11, H 7, maddə 1272) aşağıdakı məzmunda 53-1.8-ci maddə əlavə edilsin:

“53-1.8. İdman mərc oyunlarının operatorları “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə əməl etməlidirlər.”.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 31 may 2018-ci il.***

## “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1163-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin

## S ə r ə n c a m ı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1163-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 iyul 2018-ci il.***

# Akademiyada elmi-praktiki konfrans keçirilib

***İyulun 3-4-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (AzDBTİA) elmi-praktiki konfrans keçirilib.***

“Müasir dövrdə bədən Tərbiyəsi və idmanın inkişaf perspektivləri” mövzusunda keçirilən konfransda ölkənin tanınmış bədən tərbiyəsi və idman xadimləri, akademiyanın professor-müəllim heyəti iştirak ediblər. Plenar iclası açıq elan edən akademiyanın Tədris və Elmi işlər üzrə prorektoru, tibb üzrə fəlsəfə doktoru Təhminə Tağızadə akademiyada kadr hazırlığından, qarşıda duran vəzifələrdən söz açıb.

AzDBTİA rektorunun idman işləri üzrə müşaviri, professor Dilqəm Quliyev “Müstəqilliyimiz dövründə AzDBTİA-nın tələbələrinin asudə vaxtının təşkili yolları” mövzusunda geniş çıxış edib.

Qeyd edilib ki, aparılmış tədqiqatlar göstərir ki, Akademiyada tələbələrin asudə vaxtının əsas məzmununu idman məşqləri təşkil edir. Tələbələrin asudə vaxtından istifadə olunmasında kortəbiilik hökm sürür, bu vaxtın strukturu təsadüfi amillərin təsiri altında, yaxud da fərdi zövqlər və öz-özünə əmələ gələn, sosial cəhətdən tənzim oluna bilməyən qeyri-formal qrupların ənənələri nəzərə alınmaqla formalaşır.

Konfransda çıxışlar bununla bitməyib. “Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası” kafedrasının müdiri Nazim Məcidov “Fiziki tərbiyə müəllimi hazırlığının məzmunu”, “Kütləvi-sağlamlıq idman növləri” kafedrasının müdiri Elşad Nərimanov “Bədii gimnastika üzrə Azərbaycanın yığma komandası üzvlərinin fiziki hazırlığına nəzarət və qiymətləndirmə metodları”, Tədris və Elmi işlər üzrə prorektorun elmi işlər üzrə müşaviri Rəhimə Qabulova “İdmanda qəfləti ölüm” və “Sosial elmlər” kafedrasının müəllimi Elvira Babayeva “Linqvistik imperializmin inkişaf faktoru kimi idman sahəsində funksionallaşması” mövzusunda məruzələri iştirakçıların marağına səbəb oldu.





Polis Akademiyasının tədris metodiki şöbəsinin baş inspektoru, polis polkovnik-leytenantı Hicran Şərifovun da məruzəsi konfransda dinlənildi. “UGİM - də pedaqoji və metodiki işin modelləşdirilməsi” mövsuzu ilə çıxış edən tanınmış mütəxəssis bildirdi ki, UGİM-də təlim prosesinin səviyyəsini yüksəltməyin yollarından biri də onun pedaqoji-metodik təminatından asılıdır. Bunun üçün burada həyata keçirilən işin məzmun-formasını, texnologiyasını, metod, idarəetmə sistemini, qiymətləndirmə üsullarını təkmilləşdirmək lazımdır.

Sonra konfrans öz işini 3 elmi bölmədə - “Bədən tərbiyəsində kütləvilik və sağlam həyat tərzinin formalaşdırılması”, “Yüksək dərəcəli idmançıların hazırlıq sisteminin təkmilləşdirilməsi”, “Bədən tərbiyəsi və idmanın idarə edilməsi və sosial-iqtisadi aspektləri” davam etdirib. Konfransda ümumilikdə 30 yaxın məruzə dinlənilib.

Bölmə iclaslarında məruzələr müzakirə edilib, maraqlı və dəyərli təkliflər irəli sürülüb.

Konfransın sonunda bölmə rəhbərlərinin hesabatları dinlənilib, yekun qərarlar qəbul edilib.

***Dilqəm Quliyev***

# Basketbol məşqçilərinə beynəlxalq dərəcəli sertifikatlar təqdim olunub

*(əvvəli 1-ci səhifədə)*

Tədbirdə çıxış edən Çingiz Hüseynzadə MOK-un artıq altıncı dəfədir ki, məşqçilər üçün tədbirlər keçirdiyini diqqətə çatdırıb. “Bundan əvvəl keçirilən voleybol, velosiped idman növləri üzrə keçirilmiş kurslar uğurla başa çatıb. Belə seminarların paytaxtımızda keçirilməsi çox sevindirici haldır. İnanıram ki, bu seminarlar iştirakçılar üçün böyük əhəmiyyət daşıyacaq. Bu mütəxəssislər gələcəkdə bu sertifikatlarla ölkəmizi layiqincə təmsil edəcəklər. Çalışacağıq ki, növbəti illərdə də bu işi uğurla davam etdirək”, - deyə Çingiz Hüseynzadə qeyd edib.

Azərbaycan Basketbol Federasiyasının vitse-prezidenti Həsənağa Rzayev iştirakçılara uğurlar arzulayaraq deyib: “Sevinirəm ki, məşqçilərimiz bu seminarda uğurla iştirak edirlər. Ölkəmizdə bu cür seminarları keçirmək üçün hər cür şərait var. Hər zaman federasiyamıza dəstək olan Milli Olimpiya Komitəsinə təşəkkür edirəm”.

Beynəlxalq Basketbol Federasiyasının eksperti Rajko Toroman bildirib: “Təlim zamanı Azərbaycanda gənclərin idmana marağının şahidi oldum. Məşqçilər təlimdə əzmlə çalışır, bilik və bacarıqlarını inkişaf etdirirdilər. İnanıram ki, onlar gələcəkdə yüksək dərəcəli mütəxəssislər olacaq və öz biliklərini idmançılara öyrədəcəklər”.

Məşğələlər Beynəlxalq Basketbol Federasiyasının müvafiq proqramı üzrə beynəlxalq dərəcəli mühazirəçisi Rajko Toroman tərəfindən aparılıb. Təlim nəzəri və praktiki məşğələlərdən ibarət olub.

Layihəyə ümumilikdə 20 məşqçi cəlb olunub. Sonda təlim iştirakçılarına beynəlxalq dərəcəli sertifikatlar təqdim edilib.

Layihənin əsas məqsədi beynəlxalq dərəcəli basketbol məşqçilərinin yetişdirilməsi, onların nəzəri və praktiki biliklərinin genişləndirilməsi olub.

Tədbirin sonunda təlim iştirakçılarına beynəlxalq dərəcəli sertifikat təqdim olunub.



# “Çempionlar” turnirindən 11 medal

İyulun 4-7-də Türkiyənin İstanbul şəhərində sərbəst, yunan-Roma və qadın güləşi üzrə gənclər arasında “Çempionlar” beynəlxalq turniri keçirilib. 21-ci dəfə təşkil edilən turnirdə iştirak edən güləşçilərimiz yarışları 11 (1 qızıl, 3 gümüş və 7 bürünc) medalla başa vurublar.

Qazanılan medallardan 7-si (2 gümüş və 5 bürünc) böyük məşqçi Saypulla Absaidov və məşqçi Nazim Əlicanovun rəhbərliyi altında qüvvəsini sınayan sərbəst güləşçilərimizin payına düşür.

Böyük məşqçi Nurəddin Rəcəbovun rəhbərliyi altında “Çempionlar” kubokunda mübarizə aparan yunan-Roma güləşçilərimiz isə 4 (1 qızıl, 1 gümüş və 2 bürünc) medala sahib olublar.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Fazil Hadıbəyov:

# ""Zenit"in yetirmələri ümidləri doğruldurlar"

***Uşaq və yeniyetmə idmanının inkişafı Olimpiya Hərəkatının, dünya idman ictimaiyyətinin diqqətində olan vacib məsələlərdəndir. Azərbaycanda gənc nəslin fiziki və mənəvi tərbiyəsində müstəsna rol oynayan bədən tərbiyəsi və idmanın inkişafını daha da sürətləndirmək, kütləviliyini təmin etmək üçün məqsədyönlü və kompleks tədbirlər həyata keçirilir. Dünyada idman ölkəsi kimi tanınan respublikamızda əksər idman növlərində böyük nailiyyətlər qazanmaq üçün uşaq və yeniyetmə idmanına xüsusi diqqət və qayğı göstərilir. Bu sahənin inkişafı üçün paytaxt və bölgələrdə müvafiq şərait yaradılıb. Uşaq və yeniyetmələrin böyük idmana yolu təbii ki, respublikamızda fəaliyyət göstərən və ölkə idmanının inkişafına töhfə verən idman cəmiyyətlərindən, klublardan keçir. Uzun illərdir ki, ölkənin idman və bədən tərbiyəsinin inkişafında uğurla fəaliyyət göstərən "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyi (BTİCİB) məhz bu sahədə kifayət qədər zəngin təcrübəsi olan cəmiyyətlərdəndir.***



Uşaqların və gənclərin fiziki və mənəvi inkişafı, gələcəyimiz olan gənc nəslin sağlam həyat tərzinə cəlb edilməsi məsələsinə böyük önəm verən və bununla bağlı geniş, maraqlı materiallar dərc edən "Olimpiya dünyası" qəzeti "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" layihəsi çərçivəsində bu dəfə çoxsaylı oxucularına "Zenit" İC"nin fəaliyyəti və onun yetirmələri haqda məlumat verəcək.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) tabeliyində olan "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyi ölkədə bədən tərbiyəsi və idmanın inkişafında, zəhmətkeşlərin sağlamlığının möhkəmləndirilməsi və yüksək dərəcəli məşqçilərin, idmançıların hazırlanmasında əvəzsiz rol oynayır. Ölkədə bədən tərbiyəsi və idman hərəkatında müəyyən mövqe tutmağı bacaran "Zenit" İC-nin idmançıları Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında, birinciliklərində Azərbaycanı layiqincə təmsil edir, yüksək nəticələr əldə edirlər. Xüsusilə, təkbətək döyüş növləri üzrə idmançıların hazırlanmasında böyük təcrübəyə malik olan cəmiyyətin yetirmələri arasında Olimpiya çempionu Namiq Abdullayev və onun qardaşı, dünya çempionu Arif Abdullayev, 2 qat Avropa çempionu, Rio-2016 Olimpiadasının bürünc mükafatçısı Cəbrayıl Həsənovun adlarını çəkmək mümkündür. Perspektivli gənc və yeniyetmə idmançılar sərbəst güləş üzrə 2 qat dünya və Avropa çempionu Əfqan Xaşalov, Avropa ikincisi Elmira Qəmbərova,yeniyetmələr arasında dünya çempionları Əlihəsən Əmirli, Turan Bayramov və başqaları əldə etdiyi yüksək nəticələrlə idmanımıza öz töhfələrini verirlər.

Cəmiyyətin paytaxt Bakı ilə yanaşı, Gəncə və Sumqayıt şəhərlərində filialları da fəaliyyət göstərir. Bu filiallarda idman növləri üzrə ümumilikdə, 66 məşqçi fəaliyyət göstərir. Cəmiyyətin təmsilçiləri Aslan Ağayev, Akif Qurbanov və Cavid Qurbanzadə (sərbəst güləş), Yaqub Abdullayev (sambo), Emin Fətullayev (cüdo), Təvəkkül Məmmədov, Ceyhun Rüstəmov (boks), Ramin Həsənov və Sənan Həşimov (taekvondo) kimi təcrübəli məşqçilərin rəhbərliyi altında ölkə və beynəlxalq səviyyəli yarışlarda dövlət himnimizi səsləndirir, üçrəngli bayrağımızı dalğalandırırlar. Bir sözlə, "Zenit"in yetirmələri onlara bəslənilən ümidləri doğruldurlar.

## "Əldə olunan nailiyyət, qazanılan qələbə hər birimizin uğurudur"

Bugünlərdə cəmiyyətin yetirmələrindən Əlihəsən Əmirli və Turan Bayramov Xorvatiyanın Zaqreb şəhərində keçirilən dünya çempionatında qızıl medala layiq görülüblər. Azərbaycanın yeniyetmələrdən ibarət güləş yığmasının qazandığı 3 (2 qızıl, 1 bürünc) medaldan 2-si (hər ikisi qızıl) məhz "Zenit" İdman Cəmiyyəti İctiumai Birliyinin yetirmələrinin payına düşür. Əldə olunan bu yüksək nəticə cəmiyyətin səmərəli fəaliyyətinin göstəricisidir. Bu uğurun əldə olunmasında təbii ki, hər kəsin əməyi vardır. Ölkədə idman sahəsinə, yüksək səviyyədə diqqət və qayğının göstərilməsi öz bəhrəsini verir. Bu sahədə dövlət siyasətini əsas tutan Azərbaycan Milli Olimpiya Komitəsi (MOK), Gənclər və İdman Nazirliyi, eləcə də, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İdman Təşkilatları İctimai Birliyi öz işini günün tələbləri səviyyəsində qururlar. Ölkədə dövlətin idman sahəsindəki məqsədyönlü siyasətinin, idman və Olimpiya Hərəkatının və ideallarının təbliğini özünün başlıca vəzifəsi hesab edən "Olimpiya dünyası" qəzeti həmişə öz səhifələrində klub, cəmiyyət və ayrı-ayrı idmançıların uğurlarını işıqlandırır. Bu uğur münasibətilə Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının (AHİTA) sədri Nadir Əliyevlə əlaqə saxlayaraq redaksiyamız adından təbrik etməyi özümüzə borc bildik. Nadir müəllim bizə öz səmimi təşəkkürünü bildirərək "Zenit" İB-nin yetirmələrinin uğurundan məmnun olduğunu dedi: "Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyi özündə 9 idman qurumunu birləşdirir. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına millət vəkili, iqtisad elmləri doktoru, professor Səttar Möhbalıyev rəhbərlik edir.AHİK-nın tabeleyində olan idman cəmiyyətləri və klubları uşaq və yeniyetmələrin idmana cəlb edilməsi, yetişdirilməsində çox mühüm iş görürlər. Sonra bu uşaq və gənclər idmanla peşəkar şəkildə məşğul olmağa başlayırlar. İstedadlı, perspektivli idmançılar ölkəmizdə fəaliyyət göstərən müxtəlif növlər üzrə idman federasiyalarının diqqətini cəlb edir və heyətə cəlb edilirlər. Əldə olunan nəticələr, qazanılan qələbələr təcrübəli və peşəkar idman mütəxəssislərinin əməyinin nəticəsidir. AHİTA-nın rəhbərliyi altında fəaliyyət göstərən idman klubları və cəmiyyətlər tez-tez orta məktəblərdə olur, istedadlı, idmana həvəsi olan uşaq və yeniyetmələrin aşkar edilməsində gərgin əmək sərf edirlər. Rəhbərliyin apardığı düzgün siyasətin əsasında görülən əməli işlər, səmərəli fəaliyyət, zəhmətsevərlik sonunda öz bəhrəsini verir. Dəstək, qayğı olan yerdə, həmişə nəticə də olacaq.

"Zenit" İdman Cəmiyyəti zəngin ənənələrə malik qurumlardan biridir. Cəmiyyətin yetirmələri hər zaman beynəlxalq yarışlarda ölkəmizi uğurla təmsil edir, medallar qazanırlar. Əldə olunan nailiyyət, qazanılan qələbə hər birimizin uğurudur, Azərbaycan idmanının uğurudur. Arzu edirəm ki, nəinki idmanda, bütün sahələrdə uğurlarımız bol olsun".

## "Ölkə idmanında əldə olunan uğurlarda klub və cəmiyyətlərin rolu danılmazdır"

Dünya çempionatında Azərbaycan güləş yığmasına 2 qızıl medal qazandıran yeniyetmə idmançılar haqqında danışmazdan əvvəl onların bu uğurunda böyük zəhməti olan "Zenit" İC-nin sədri Fazil Hadıbəyovdan fikirlərini bölüşməyi xahiş etdik. Qeyd edək ki, MOK-un üzvü, Əməkdar bədən tərbiyəsi və idman xadimi Fazil Hadıbəyov bu cəmiyyətə 1993-cü ildən rəhbərlik edir. Son dərəcə səmimi, mehriban, qayğıkeş insan, həm də tələbkar rəhbər olan Fazil müəllim bizimlə söhbətində ölkədə idman və Olimpiya hərəkatının inkişafı, bu sahəyə göstərilən diqqət və qayğıdan, idmançılarımızn əldə etdiyi uğurlardan danışdı: "Ölkə idmanında əldə olunan uğurlarda klub və cəmiyyətlərin rolu danılmazdır. Bu idman təşkilatlarının yetirmələri getdikcə püxtələşir və sonralar karyeralarını federasiyalarda, yığma komandalarda davam etdirirlər. Rəhbərlik etdiyim "Zenit" İCİB Azərbaycan idmanına öz töhfəsini verirsə, bu, hər birimizin uğurudur, bütün kollektivin uğurudur. Məqsədimiz idmana həvəsi olan uşaq və gənclərə kömək göstərmək, onlara düzgün istiqamət verməkdir. Çalışırıq ki, onlardan diqqət və qayğımızı əsirgəməyək. Cəmiyyətimizin yetirmələri Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında uğurla çıxış edir, yüksək nəticələrlə xalqımızı sevindirirlər. "Zenit" İB Olimpiya çempionu Namiq Abdullayev, Avropa çempionu, Rio-2016 Olimpiadasının mükafatçısı Cəbrayıl Həsənov, dünya çempionu Əfqan Xaşalov kimi idmançıları ilə fəxr edir".

## "Tokio-2020 Olimpiadasında Əfqan Xaşalova böyük ümid bəslyirik"

Fazil Hadıbəyov bizimlə söhbətində gənc idmançı, Qazax güləş məktəbinin yetirməsi Əfqan Xaşalova böyük ümid bəslədiklərini bildirdi. Ondan Tokio-2020 Yay Olimpiya Oyunlarında qızıl medal gözlədiklərini deyən Fazil müəllim vurğuladı: "Əfqan Xaşalov (54 kq) çox gənc və perspektivli idmançılardandır. Biz ondan növbəti olimpiadada medal gözləyirik, özü də qızıl. İkiqat dünya çempionu Əfqan Xaşalova ümidimiz böyükdür. Cəmiyyətimizdə tərbiyəli və istedadlı uşaq və gənclərimiz kifayət qədərdir.



Turan Bayramov (65 kq) və Əlihəsən Əmirli (48 kq) da gələcəyinə böyük ümid bəslədiyimiz idmançılarımızdandırlar. Çox hazırlıqlı və texnikalı güləşçidirlər. Onların hər ikisi ilə təcrübəli məşqçimiz Cavid Qurbanzadə məşğul olur. Bu idmançıların hər ikisi bu ilin fevralında keçirilən sərbəst güləş üzrə Azərbaycan birinciliyində qızıl medala layiq görülüblər".

Qeyd edək ki, Turan Bayramov və Əlihəsən Əmirli bu il Xorvatiyanın Zaqreb şəhərində keçirilən dünya çempionatının qalibi olublar. Turan Bayramov ötən il Yunanıstanın Afina şəhərində təşkil edilən dünya çempionatında da fəxri kürsünün ilk pilləsində yer alıb. O həm də Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına (Buenos-Ayres) vəsiqə qazanıb. Turan Bayramovun ilk məşqçisi hazırda Qazaxıstanda yaşayan Abil İbrahimovdur.

Əlihəsən Əmirli dünya çempionatında bütün görüşlərini qələbə ilə başa vurub. İlk görüşünü Yaponiya təmsilçisi Kaisei Tanabeilə keçirən güləşçimiz yarışı 3:0 hesabı ilə başa vurub. Sonrakı görüşlərdə Bolqarıstan və İran təmsilçiləri ilə qarşılaşan Əlihəsən bu döyüşlərdən müvafiq olaraq 10:0 və 6:3 hesabı ilə qalib ayrılıb. İkidə bir finalda onu rəqibi gürcüstanlı pəhləvan Gioigi Gigelaşvili olub. Rəqibinə 8:2 hesabla qalib gələn Əlihəsən Əmirli finala vəsiqə qazanıb. Final qarşılaşmasında ikiqat dünya çempionu Riçard Figueroanı da döşəkdən kənarlaşdıran idmançımız 6:1 hesabı ilə dünya çempionu adına layiq görülüb.

Digər yeniyetmə idmançımız Turan Bayramov da dünya çempioantında uğurla çıxış edib. Yarışlara səkkizdəbir finaldan başlayan idmançımız Səudiyyə Ərəbistanından olan Hassan Şayanı (5:0) mübarizədən kənarlaşdırıb. 4/1 finalda ermənistanlı güləşçi Narek Harutyunyana 8:4 hesabı ilə qalib gələn Turanın növbəti rəqibi İran təmsilçisi olub. Mohammad Karimiseifabada qalib gələn (8:2) güləşçimiz finala vəsiqə qazanıb. Finalda Rusiya təmsilçisi İnalbek Şeriev ilə qarşılaşan Turan Bayramov 4:1 hesabı ilə döşəkdən qalib ayrılıb.

Fazil Hadıbəyov bizimlə söhbətində cəmiyyətin idman zalının əsaslı təmirə ehtiyacı olduğunu bildirdi. Sahəsi 600 kv m olan zalın təmirinin kifayət qədər vəsait tələb etdiyini deyən cəmiyyətin sədri vurguladı: "Cəmiyyətin iki idman zalı vardır. Hər il zala əl gəzdirsək də, daim istifadədə olduğu üçün mütləq təmir olunmalıdır. Öz gücümüz hesabına təmir etmək imkanımız yoxdur. İdman zalında əsaslı təmir təxminən 14 il bundan əvvəl aparılıb. Bugünlərdə hər iki idman zalı üçün İrandan örtük gətizdirmişik".

## Sağlam insan gümrah, zirək olur və heç nədən yorulmur

Zəhmətsevərliyi, çalışqanlığı yüksək qiymətləndirən Fazil müəllim tənbəlliyin insana heç bir xeyir gətirmədiyini deyir: "Cəmiyyətdə mütamadi olaraq söhbətlər aparırıq. Uşaq və gənclərə başa salırıq ki, idman və bədən tərbiyəsinə yüksək səviyyədə diqqət və qayğının göstərildiyi ölkəmizdə sizin üçün hər bir şərait yaradılıb. Yaxşı yaşamaq artıq sizin öz əlinizdədir. Dövlətimiz tərəfindən Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında uğur qazanan idmançılara hər bir sahədə güzəşt edilir, onlar hərtərəfli qayğı ilə əhatə olunurlar. Siz də uğur qazanın ki, özünüz, ailəniz yaxşı yaşayasınız. Onlara başa salırıq ki, insan mənən zəngin olmalıdır, ürəyi gözəl olmalıdır. Vətənə, cəmiyyətə gərəkli olmağı bacarmalıdır.

İnsan işdən yorulmamalıdır, əksinə zövq almağı bacarmalıdır. Həm özünə, həm ailəsinə, həm də cəmiyyətə gərəkli olmaqdan gözəl nə ola bilər ki?! Məni yormayan işimə olan həvəsim, zəhmətsevərliyimdir. Yetirmələrimizin uğurundan həvəslənir, daha gəncləşirəm. Hər gün saat 6-da dururam. Dənizdə çimirəm, idman edirəm, necə deyərlər, sağlam həyat tərzi keçirirəm. Sağlam insan gümrah, zirək olur və heç nədən yorulmur. Həyatdan şikayətlənən insanları sevmirəm. Tanrıdan bizə verilən ömür payını gözəl və mənalı yaşamaq öz əlimizdədir".

Söhbətimizin sonunda Fazil Hadıbəyov "Olimpiya dünyası" qəzeti vasitəsilə öz təşəkkürünü də bildirdi: "AHİTA-nın rəhbərliyi "Zenit" İCİB-nin fəaliyyətindən razıdır. AHİTA-nın rəhbərliyinə və üzv təşkilatlara öz minnətdarlığımı bildirirəm. Sağ olsunlar ki, bizdən öz köməklərini əsirgəmirlər. AHİTA-nın sədri Nadir Əliyev, Azərbaycan Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Bəkir Yusifov, Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Etibar Əliyev, Elektroenergetika və Elektotexnika Sənayesi İşçiləri Respublika Komitəsinin sədri Rafiq İldarov və digəriləri idmançılarımıza daim diqqət və qayğı göstərir, yardımlarını əsirgəmirlər. Baku Steel Kompani MMC İşçiləri Həmkarlar İttifaqı Birliyinin sədri Əliqulu Quliyev daim idmançılarımızın çıxışlarını izləyir, "Zenit"in uğuruna bizimlə bərabər sevinir.

## "Yeniyetmə və gənclərlə işləmək məşqçidən fərqli yanaşma tələb edir"

Yuxarıda qeyd etdiyimiz kimi, "Zenit" İC-də öz işini bilən peşəkar, vicdanlı məşqçilərçoxdur. Onlardan biri də sərbəst güləş üzrə təcrübəli məşqçi Cavid Qurbanzadədir. Əfqan Xaşalov, Elvin Dünyamalıyev, Əlihəsən Əmirli, Turan Bayramov məhz Cavid müəllimin yetirmələridir.

Cavid Qurbanzadə 2000-ci ildən sərbəst güləş sahəsində çalışır. İdmanda aldığı ağır zədələrdən sonra karyerasını məşqçi kimi davam etdirib. Cavid müəllim deyir ki, məşqçi olmaq insandan böyük məsuliyyət və hədsiz zəhmətsevərlik tələb edir. Məşqçi yetirməsi üçün həm müəllim, həm ata, həm də dost olmağı, ona düzgün istiqamət verməyi bacarmalıdır. "Yaş səviyyəsindən asılı olaraq uşaq, yeniyetmə və gənclərlə işləmək məşqçidən müəyyən və fərqli yanaşma tələb edir. Məşq prosesində idmançının fizki, texniki, taktiki və psixoloji hazırlığı çox mühümdür. Kiçik yaşlı yeniyetmələrlə işləmək daha çətin və məsuliyyətlidir. Çünki bu yaşda buraxılan səhvlərin sonra qarşısıalınmaz nəticələri ola bilər".

Cavid müəllim yetirmələri Əlihəsən Əmirli və Turan Bayramovla bağlı ona ünvanladığımız sualı belə cavablandırdı: "Yetirmələrimiz Xorvatiyanın Zaqreb şəhərində keçirilən yeniyetmələrin dünya çempionatında iki qızıl medal qazandılar. Bu, çox böyük uğurdur. Cəmiyyətimizin, idmanımızın uğurudur, çəkilən zəhmətin bəhrəsidir. Dünya çempionatına hazırlıqlar ciddi aparılırdı. Əlihəsən Əmirli iki dəfə dalbadal yeniyetmələr arasında dünya çempionu adına layiq görülüb. Bu, bir ilkdir. O, çətin qrupda yarışırdı və rəqibləri çox güclü idilər. Əlihəsən bu yarışa həm fiziki, həm də mənəvi cəhətdən hazır idi. Bu bir faktdır ki, yarışa çıxan hər bir idmançıya qələbədə fiziki gücdən daha çox ağıl, məntiq daha çox kömək edir. Rəqiblər biri-birilərinin döyüşlərini izləyir, texnikasını öyrənir, hücüm və müdafiəsini dərindən tədqiqedirlər. Məşqçilər də həmçinin yetirməsinin döyüş texnikasını əzbər bilirlər və bunun əsasında təlimat verirlər. Hər dəfə eyni texnika ilə güləşmək olmur, hər dəfə yeniliklər etmək, inkişaf etmək lazım gəlir. Yoxsa, rəqibə qalib gəlmək mümkün deyil. Hər rəqiblə eyni texnika ilə döyüşmək olmaz. Uşaq və yeniyetmələrlə işləyəndə hərtərəfli hazırlamaq lazımdır ki, istənilən halda çətin vəziyyətdən çıxış yolu tapa bilsin.

Bütün idmançılar təbii ki, çempion ola bilmirlər. Burada anadangəlmə istedad, iradə, xarakter, çalışqanlıq çox mühüm rol oynayır. İdmançı var ki, güclü potensialı var, amma iradəsi zəifdir. Turan Bayramov da perspektivli idmançılarımızdandır. O, bu ilin oktyabrında Argentinanın Buenos-Ayres şəhərində keçiriləcəck Yeniyatmələrin III Yay Olimpiya Oyunlarına lisenziya qazanıb".

Cavid Qurbanzadə şansından insanın həyatında böyük rol oynadığını qeyd etdi: "Şans istər həyatda, istər idmanda çox böyük rol oynayır. İdmançı var ki, istedadlıdır, bütün günü məşq edir, potensialı çox yüksəkdir, amma yarışda bəxti gətirmir. Hətta elə olur ki, o boyda gərgin və ağır məşqlərdən sonra zədələnir və yarışa çıxa bilmir. Buna misal olaraq Elvin Dünyamalıyevi göstərə bilərəm. O, çox bacarıqlıdır, potensiallı idmançıdır. Amma şansı gətirmir. Biz ondan dünya və Avropa çempionatında medallar gözləyirik. Füzuli Qasımov, Nəcəf Nurullayev, Elvin Qasımov da gələcəyi olan idmançılardır.

Kiçikyaşlı yeniyetmələrdən Şövqi Süleymanlı, Mircavad Nəbiyev, Elmir Rüstəmov, Məhəmməd Aydayev və başqalarının adlarını çəkə bilərəm. Məhəmməd Aydayev Çeçenistandan gəlib, çox güclü güləşçidir. Mən onun gələcəyinə böyük ümid bəsləyirəm. Sizə bir hadisə danışım. 2004-cü ildə yaşadığım həyətdən çıxanda bir uşaq maşının qabağını kəsdi. Azərbaycan dilində yaxşı danışa bilmirdi. Ürkək gözlərini üzümə zilləyərək dedi: "Məndə ata da yox, pul da yox. Amma güləşmək istəyirəm. Mənə kömək edərsinizmi? Olimpiya çempionu olandan sonra pulunuzu verəcəyəm". Kiçikyaşlı uşağın bu sözlərindən çox təsirləndim. Bilmədim, gülüm, y ağlayım? İndi həmin uşaq bizim cəmiyyətdə məşğul olur. Belə istedadlı, imkansız uşaqlara mütləq qayğı göstərilməlidir. Bunun üçün cəmiyyətimizin sədri Fazil müəllimə təşəkkür edirəm. Biz də bacardığımız qədər bizə göstərilən etimadı doğrultmağa çalışırıq. Məqsədimiz budur ki, cəmiyyətimizin yetirmələri Olimpiya Oyunlarında, dünya və Avropa çempiontlarında bayrağımızı qaldırsınlar, himnimizi səsələndirsinlər.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

Olimpiya dünyası





2018 FIFA WORLD CUP RUSSIA™
14 JUNE - 15 JULY



# FUTBOL

X Ü S U S İ B U R A X I L I Ş - 6

# DÇ-2018: 1/4 finalda mundial Avropa çempionatına çevrildi

## *Dünyanın ən güclü yığma komandası "Köhnə qitə"dən olacaq*

### "Saatlar" ölkəsi üçün erkən bitən sınaq

1/8 final

**İsveç- İsveçrə - 1:0 (0:0)**
**Qol:** Emil Forsberq, 66
**Sarı vərəqələr:** Mikael Lustiq, 31 - Valon Behrami, 61; Qranit Caka, 68
**Qırmızı vərəqə:** Mixail Lanq, 92
**Hakimlər:** Damir Skomina, Robert Vukan, Yure Praprotnik (hamısı Sloveniya)
*3 iyul. Sankt-Peterburq. "Zenit Arena", 64042 tamaşaçı.*

Rusiyada keçirilən DÇ-2018-in 1/8 final mərhələsinin son oyunları keçirilib. Meydana əvvəlcə G və H qruplarından 1/8 finala yüksələn komandalar çıxıb. Öncə İsveç və İsveçrə milliləri Sankt-Peterburqdakı "Zenit Arenada" mübarizə aparıb. Sürətli hücumlarla başlayan oyunun birinci hissəsi komandaların cəhdlərinə baxmayaraq, qolsuz heç-heçə ilə başa çatıb. Qarşılaşmanın taleyini 1 qol həll edib. Matçın ikinci hissəsində Skandinaviya təmsilçiləri istəklərinə çatıblar. Emil Forsberqin yeganə qolu İsveçi növbəti mərhələyə daşıyıb.



### Son ümid qolu cərimə zərbələrində özünü doğrultmadı

**Kolumbiya - İngiltərə - 1:1 (0:0)**
**Qollar:** Yerri Mina, 90+3 - Harri Keyn, 57 (pen.)
**Sarı vərəqələr:** Vilmar Barios, 41; Santiyaqo Arias, 52; Karlos Sançez, 54; Radamel Falkao, 63; Karlos Bakka - Jordan Henderson, 56; Cessi Linqard, 69
**Penaltilər seriyası:** 3:4
**Hakimlər:** Mark Qeyqer, Co Fletçer, Frenk Andersson (hamısı ABŞ)
*3 iyul. Moskva. "Spartak" stadionu, 44190 tamaşaçı*

1/8 final mərhələsinin son oyununda Kolumbiya və İngiltərə milliləri üz-üzə gəlib. Moskvadakı "Spartak" stadionunda keçirilən qarşılaşma gərginliyi ilə digər oyunlardan heç də geri qalmayıb.

Qarşılıqlı hücumlar şəraitində keçən oyunun birinci hissəsində qapılara top vurulmayıb və komandalar fasiləyə qolsuz heç-heçə ilə yollanıblar.

Matçın ikinci hissəsində "dumanlı Albion" təmsilçiləri hesabı açıblar. Görüşün 57-ci dəqiqəsində Kolumbiya millisinin qapısına təyin olunan 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirən Harri Keyn mundialda altıncı qoluna imza atıb - 1:0.

Lakin İngiltərə millisi bu üstünlüyü oyunun sonunadək qoruyub saxlaya bilməyib. Matçın əsas vaxtına əlavə edilən hissənin 3-cü dəqiqəsində (90+3) Yerri Mina hesabı bərabərləşdirib - 1:1.

Görüşün əsas vaxtı heç-heçə başa çatdığından qalibi müəyyənləşdirmək üçün təyin olunan 15 dəqiqəlik iki əlavə hissədə də hesab açılmayıb. On bir metrlik cərimə zərbələri seriyasını daha dəqiq yerinə yetirən (4:3) İngiltərə yığması dörddəbir finala sonuncu vəsiqənin sahibi olub.

### Avropalılar amerikalıları DÇ-dən növbə ilə uzaqlaşdırdılar

1/4 final

**Uruqvay - Fransa - 0:2 (0:1)**
**Qollar:** Rafael Varan, 40; Antuan Qrizmann, 61



**Sarı vərəqələr:** Rodriqo Bentankur, 38; Kristian Rodriges, 69 - Lukas Ernandes, 33; Kilian Mbappe, 69
**Hakimlər:** Nestor Pitana, Ernan Maydana, Xuan Belatti (hamısı Argentina), Alireza Faqani (İran)
*6 iyul. Nijniy Novqorod. "Volqa Arena", 43319 tamaşaçı*

İyulun 6-da XXI dünya çempionatının dörddəbir final mərhələsinə Uruqvay-Fransa oyunu ilə start verilib. "Volqa Arena"da keçirilən görüşdə qalib gələn Fransa yığması yarımfinala ilk vəsiqənin sahibi olub. Argentinalı Nestor Pitananın idarə etdiyi matç sürətli hücumlarla başlayıb. "Üçrənglilər" oyunun birinci hissəsinin sonuna yaxın hesabı açıblar. Antuan Qrizmanın cərimə zərbəsindən hava ötürməsini başla dəqiq tamamlayan Rafael Varan adını tabloya yazdırıb - 1:0. İlk hissə bu hesabla da başa çatıb.

Fasilədən sonra Uruqvay yığması hesabı bərabərləşdirmək üçün irəli atılsa da, 61-ci dəqiqədə öz qapılarında ikinci qolu görüblər. Turnir ərzində qapısından cəmi 1 top buraxan Fernando Muslera Antuan Qrizmanın uzaq məsafədən qüvvətli zərbəsindən sonra kobud səhvə yol verərək üzərinə gələn topu ram etməkdə çətinlik çəkib - 2:0. Qalan dəqiqələrdə oyunda başqa qol olmayıb və matç Fransa yığmasının 2:0 hesablı qələbəsi ilə başa çatıb.

Beləliklə, XXI dünya çempionatının ilk yarımfinalçısı Fransa yığması olub.

### "Şeytanlar" "samba"çılar üçün bilet sifariş verdilər

**Braziliya - Belçika - 1:2**
**Qollar:** Renato Auqusto, 76 - Fernandinyo, 13 (avtoqol); Kevin De Bruyne, 31
**Sarı vərəqələr:** Fernandinyo, 85 - Tobi Alderveyreld, 48; Tomas Meunier, 71
**Hakimlər:** Milorad Majiç, Milovan Ristiç, Dalibor Curceviç (hamısı Serbiya), Ceyr Marrufo (ABŞ)
*6 iyul. Kazan. "Kazan Arena", 42873 tamaşaçı*

Günün ikinci oyunu da Cənubi Amerika - Avropa qarşıdurması olub. Braziliya Belçika ilə üz-üzə gəlib. "Pentakampeonlar" növbəti çempionluğunu hədəfləsə də, Belçika millisi də kuboka iddialı olduğunu sübut etmək əzmində idi. Belçikalılar bu oyuna qədər ən məhsuldar hücum xətti ilə seçilirdi -12 qol. "Sambaçılar" turnirin ən etibarlı müdafiə xətti ilə seçilirdi. Onlar bu oyuna qədər qapılarından cəmi bir top buraxmışdılar. Müdafiə xəttində etibarlılığı ilə fərqlənən cənubi amerikalılar oyunun 13-cü dəqiqəsində Fernandinyonun avtoqolu ilə hesabda geri düşüblər. Görüşün



31-ci dəqiqəsində Belçika millisinin üzvü Kevin De Breyne hesab arasındakı fərqi bir qədər də artırıb. Görüşün ilk hissəsi Belçika millisinin 2:0 hesablı üstünlüyü ilə yekunlaşıb. Serbiyalı baş hakim Milorad Maziçin idarə etdiyi oyunun ikinci hissəsinə Braziliya millisi daha fəal başlayıb. Qarşılaşmanın 76-cı dəqiqəsində Renato Auqusto fərqlənərək hesab arasındakı fərqi azaldıb. Görüşün sonunadək komandalar təhlükəli vəziyyətlər yaratsalar da, top qapıdan keçməyib.

Beləliklə, görüşdə Belçika millisi 2:1 hesabı ilə qalib gələrək yarımfinala yüksəlib və Fransa yığmasına rəqib olub.

### Zəiflərə Rusiyada yer yoxdur

**İsveç - İngiltərə - 0:2 (0:1)**
**Qollar:** Harri Maquayr, 30; Dele Alli, 59
**Sarı vərəqələr:** Sebastyan Larsson, 90+4 - Harri Maquayr, 87
**Hakimlər:** Byörn Kuypers, Sander van Rukel, Ervin Zeinstra (hamısı Hollandiya)
*7 iyul. Samara. "Kosmos Arena", 39991 tamaşaçı*

İyulun 7-də XXI dünya çempionatının dörddəbir final mərhələsində İsveç və İngiltərə milliləri qarşılaşıblar. Hollandiyalı Byörn Kuypersin idarə etdiyi matç sürətli hücumlarla başlayıb. İngilislər oyunun birinci hissəsinin sonuna yaxın hesabı açmağa müvəffəq olublar. Hari Maquayer fərqlənərək adını tabloya yazdırıb - 1:0.

İlk hissə İngiltərə millisinin 1:0 hesablı üstünlüyü ilə başa çatıb.

Fasilədən sonra təzyiqi daha da artıran "dumanlı Albion" təmsilçisi matçın 59-cu dəqiqəsində rəqibi ikinci dəfə oyuna mərkəzdən başlamağa məcbur edib. Cesi Linqardın hava ötürməsini Deli Alli dəqiq baş zərbəsi ilə tamamlayıb - 2:0. Qalan dəqiqələrdə hər iki komandanın cəhdlərinə baxmayaraq, hesab dəyişməyib.

Beləliklə, İngiltərə millisi 28 il sonra dünya çempionatının yarımfinal mərhələsinə vəsiqə qazanıb.

*(ardı 5-ci səhifədə)*




# DÇ-2018: 1/4 finalda mundial Avropa çempionatına çevrildi

## Dünyanın ən güclü yığma komandası "Köhnə qitə"dən olacaq

*(əvvəli 4-cü səhifədə)*

### "Damalılar" "Rus drujinası"na "istirahət edin" - dedi

**Rusiya - Xorvatiya - 2:2 (1:1)**

**Qollar:** Denis Çerışev, 31; Mario Fernandes, 115 - Andrey Kramariç, 39; Domaqoy Vida, 101

**Penaltilər seriyası:** 3:4

**Sarı vərəqələr:** Yuri Qazinski, 109 - Deyan Lovren, 35; İvan Ştriniç, 38; Domaqoy Vida, 101; Yosip Pivariç, 114

**Hakimlər:** Sandro Rikki, Emerson Auqusto de Karvalyu, Marselo Karvalyu van Hasse (hamısı Braziliya)

***7 iyul. Soçi. "Fişt" stadionu, 44287 tamaşaçı***

1/4 final mərhələsinin son oyunu Soçidəki "Fişt" stadionunda Rusiya və Xorvatiya millilәri arasında keçirilib. Balkan təmsilçisi görüşün ilk dəqiqələrindən təşəbbüsə yiyələnsə də, hesabı ev sahibləri açıblar. Matçın 31-ci dəqiqəsində Rusiya yığmasının əks-hücumu zamanı Denis Çerişevin uzaq məsafədən vurduğu topu xorvatiyalı qolkiper yalnız seyr etməklə kifayətlənib - 1:0.

Bu qoldan sonra təzyiqləri daha da artıran Xorvatiya millisi matçın 39-cu dəqiqəsində hesabı bərabərləşdirib. Mario Mandzukiçin cərimə meydançasına hava ötürməsini başla dəqiq tamamlayan Andrey Kramariç oyunda tarazlığı bərpa edib - 1:1.

Komandalar fasiləyə bu hesabla yollanıblar.

Xorvatiyalılar matçın ikinci hissəsində də üstün oyun nümayiş etdirsələr də, hesab dəyişməyib və görüşün əsas vaxtı 1:1 hesablı heç-heçə ilə başa çatıb.

Qalibi müəyyənləşdirmək üçün təyin olunan 15 dəqiqəlik iki hissədə qapılara iki top vurulub. Birinci hissənin 11-ci dəqiqəsində (101-ci dəqiqə) xorvatiyalıların hücumu zamanı Domaqoy Vida topa başla dəqiq zərbə endirərək komandasını hesabda irəli çıxarıb - 2:1. Lakin ruslar ikinci əlavə vaxtda hesabı bərabərləşdiriblər. Matçın 115-ci dəqiqəsində Dzaqoyevin cərimə zərbəsindən hava ötürməsindən sonra topa başla dəqiq zərbə endirən Mario Fernandes Rusiya yığmasını məğlubiyyətdən xilas edib. Fernandesin başla vurduğu bu qol DÇ-2018-də başla vurulan 31-ci qol olub.

Qeyd edək ki, Mario Fernandesin matçın 115-ci dəqiqəsində vurduğu qol Rusiya millisinin dünya çempionatlarında (SSRİ də daxil olmaqla) rəqib qapılarından keçirdiyi ən gec qol kimi tarixə düşüb.

Əlavə olunan vaxtda da qalib müəyyənləşmədiyindən 11 metrlik cərimə zərbələri seriyası təyin olunub.

Cərimə zərbələri seriyasında 4:3 hesabı ilə qalib gələn Xorvatiya yığması 20 il sonra ikinci dəfə DÇ-nin yarımfinal mərhələsinə yüksəlib. "Damalılar" daha öncə 1998-ci ildə dünya çempionatında yarımfinala qədər irəliləmiş və Fransaya 2:1 hesabı ilə məğlub olaraq, mübarizəni dayandırmışdı.

Beləliklə, 1/4 final mərhələsinin son görüşlərindən sonra bütün yarımfinal cütlükləri müəyyənləşib. Bu gün saat 22:00-da keçiriləcək ilk yarımfinal görüşündə Fransa və Belçika milliləri üz-üzə gələcəklər. İyulun 11-də saat 22:00-da keçiriləcək Xorvatiya və İngiltərə millilərinin oyununda isə digər finalçının adına aydınlıq gələcək.

# Bir ailənin unudulmayan hekayəsi

## Onun üçün ən yaxşısı damalı köynəkdir

***Dünya çempionatında çıxış edən ulduzların hər birinin öz ailə dramı, öz hekayəsi var. Bu hekayələr kimisini heyrətləndirir, kimisini də həyata olan sevgiyə müqəddəs yanaşmağa sövq edir. "The Players' Tribune" jurnalı bu dəfə İvan Rakitçin maraqlı həyatından bir neçə məqamı bir araya gətirib. Həmin məqaləni oxucularımıza təqdim edirik.***

Atam qutunun içərisindən çıxaranda qardaşım və mən bilirdik ki, formalar bir də əynimizdən düşməyəcək. Onu kirlənənə, köhnələnə qədər çıxarmayacağıq...

Qutu İsveçrədəki evimizə çatana qədər içərisində nə olduğunu bilmirdik. Üzərində qaytarılma ünvanı kimi Xorvatiya göstərilmişdi. Həmin ünvan bizə aid olsa da, nə mən, nə də qardaşım bir dəfə də olsun həmin evin kandarından keçməmişdik.

Biz evdə xorvat dilində danışırdıq. Ətrafımızda çoxlu xorvatlar yaşayırdı. Ancaq Xorvatiya hələ də mənə yad görünürdü. 1991-ci ildə müharibə başlayanda valideynlərim ölkəni tərk etmişdilər. Həmin vaxtdan etibarən evimizə qayıtmamışdıq. Qardaşım Deyan və mən İsveçrədə anadan olmuşuq. Biz Xorvatiyanı televizorda




görmüşdük. Valideynlərimiz doğma yerləri bizə foto-şəkillərdə göstərmişdi.

Balkan yarımadasında baş verənləri bir yeniyetmənin dərk etməsi mümkünsüz idi. Valideynlərimiz heç vaxt bizimlə amansız müharibə haqqında danışmazdılar. Əslində, onların bu mövzuya toxunması başadüşülən idi. Yadımdadır, bəzən telefonda Xorvatiya ilə (qohumlarla) danışanda hönkür-hönkür ağlayardılar. O hissləri heç bir sözlə ifadə etmək olmur. Bu, bir kabus idi. Bizim bəxtimiz gətirmişdi. Hadisələrdən uzaqda, nəyin necə baş verdiyinin fərqinə varmırdıq. Ancaq valideynlərim gecə-gündüz doğma yerlərin həsrətilə alışıb, yanırdılar. Axı, onlar dostlarından, ailələrindən ayrı düşmüş, xeyli sayda sevdikləri insanı itirmişdilər.

4-5 yaşım olardı, televizorda xəbərlərə baxırdım. Müharibə haqqında veriliş göstərirdilər. Çarpayımda uzanıb, öz-özümə düşünürdüm: "Bu, imkansızdı. Bütün bunlar necə baş verə bilər axı?"

### Ondan 10 dənə də olsa idi, yenə istəyərdik

Xorvatiya müstəqilliyini elan etməzdən əvvəl də futbol üzrə yığma komandamız oyunlarda iştirak edirdi. Məncə, bu, futbolun bizim üçün, ümumiyyətlə, ölkə və əhalisi - harda yaşamaqlarından asılı olmayaraq - üçün necə böyük əhəmiyyət kəsb etdiyini diqqət çatdırır.

Bir gün. O günü indiyə qədər xatırlayıram. Atam mətbəxdən bıçaq götürüb, qutunu açdı. "Sehrli qutudan" qardaşım və mənim üçün aldığı Xorvatiya formalarını çıxardı... Möhtəşəm anlar idi. Formaları əynimizə geyindik, elə onlarla da yatdıq. Növbəti gün məktəbə həmin formalarla getdik. Ertəsi gün də eyni cür oldu. Aman Tanrım, bizdə Xorvatiya millisinin forması var. Qırmızı və ağ damalı köynək. Ancaq arxasında ad yazılmamışdı. Ondan 10 dənə də olsa idi, yenə istəyərdik. Çünki bu köynəkdən başqasını geymək istəmirdik. O formalar bizim üçün çox özəl idi.

### Ancaq ürəyimin böyük bir hissəsi Xorvatiyaya aid idi

Ancaq futbol oynadığım ilk illərdə Xorvatiya formasını geymirdim. İkinci evim - İsveçrənin forması əynimdə idi. Heç kimdən gizlətmirəm. Səmimi olmağa çalışacağam. İnsanlara isveçrəli olduğumu deyirdim. Mən belə deyəndə ətrafdakılar məni aşağıdan-yuxarı qəribə baxışlarla süzürdülər: "İsveçrəli? İvan Rakitiç?" Ancaq mən İsveçrədə doğulmuş, orda böyüyüb başa çatmışdım. Məktəbə İsveçrədə başlamışdım. Dostlarım da isveçrəli idilər. Ona görə də 5 il boyunca gənclərdən ibarət komandalarda İsveçrə forması geydiyimə görə qürur hissi duyurdum. Ancaq ürəyimin böyük bir hissəsi Xorvatiyaya aid idi. Həmişə də belə olub.

Müharibə bitdikdən bir neçə il sonra valideynlərim, qardaşım və mən nəhayət ki, Xorvatiyaya gedə bildik. Orada olanda müharibə haqqında heç kim, bir kəlmə belə dilinə gətirmirdi. "Müharibəni unutmalı, yolumuza davam etməli və olanları geridə qoymalıyıq" - bu kimi düşüncələr rahat buraxmırdı.

### İstədiyiniz bir xorvatiyalıdan soruşun...

İlk dəfə Xorvatiyanı ziyarət etmək mənə Möhlini - İsveçrədəki evimizi xatırladırdı. Bizim kimi, daha neçə-neçə xorvat həmin şəhərə köçmüşdü. Ona görə də yaxınlığımızda çoxlu xorvat ailələr və xorvat restoranları var idi. 1998-ci ildə Xorvatiya dünya çempionatında ilk dəfə iştirak edəndə bütün pəncərələrdə və mağaza önlərində bayraqlar dalğalanırdı. Hamı özündən çıxmışdı.

DÇ-1998-i qardaşım və atamla birlikdə İsveçrədəki evimizdə izləyirdik. Əynimizdə formalarımız, sakit şəkildə tamaşa edirdik. Atam danışmağa icazə vermirdi. 90 dəqiqə ərzində əsas diqqət yığmanın oyununa yönəlmişdi. Atam deyərdi: "Sonra danışarıq. İndi isə oyuna baxın".



İstədiyiniz bir xorvatiyalıdan soruşun, Almaniya ilə oynanılan 1/4 final matçını xatırlayacaq. Necə unuda bilər ki? Rəsmi olaraq 1992-ci ildə komanda kimi təsdiqlənmişdik. Budur, 6 il sonra ilk dünya çempionatında Almaniyaya qarşı 1/4 final oyununa çıxırdıq. Atam Luka ağlını itirmişdi. Onun qədər futbol xəstəsi olan ikinci birini görməmişəm. "Barselona"da oynayan birinin bunu deməsi hər şeyi ifadə edir.

Biz İsveçrəyə gəldikdən sonra atam ilk olaraq tikintidə işləməyə başlamışdı. Güclü biridi. Gənc yaşlarında futbol da oynayıb. Dayaq yarımmüdafiəçisi imiş, 4 nömrəli formanı geyərmiş. Xorvatiya Almaniyanı udduqdan sonra onu saxlaya bilmirdik,"uçurdu". Bu gün tez-tez olur ki, hər ikimizin xəyalını yaşadığımı hiss edirəm. Atam İsveçrəyə köçməyə qərar verməmişdən öncə Bosniyada elit səviyyədə futbol oynayırmış. Futbolla vidalaşdıqdan sonra isə mənim oyunlarımı canlı izləmək üçün hər şeyi edirdi. Futbol və Xorvatiya onun üçün çox böyük məna ifadə edirdi.

### Ovsunlayır adamı, bir növ həmişə onun üçün oynamaq istəyirsən

Mən İsveçrə və Xorvatiya arasında seçim etmək məcburiyyətində qalmışdım. İsveçrəli məşqçimlə danışırdım, qapının kənarında onun irəli-geri var-gəl etdiyini hiss edirdim. Düzü, elə anlar olub, düşünmüşəm ki, İsveçrədən başqa bir yerdə oynaya bilmərəm. Heç vaxt buna ehtimal kimi yanaşmamışam, çünki əvvəlindən İsveçrə üçün oynayırdım. Bu, mənim komandam idi. Ancaq 10 il öncə Slaven Biliç və Xorvatiya Futbol Federasiyasının prezidenti Bazelə oyunumu izləməyə gəlmişdilər. Sonra danışmaq üçün bir araya gəldik.

Hər şeydən əvvəl, Slavenlə bir otaqda olmaq, nə desə razılaşmaq mümkün idi. O, mənim qəhrəmanım idi. Mənə təzyiq etmədi. Sadəcə, komandanın planlarından və mənim planların bir parçası olmağıma dair istəyindən danışdı: "Mənimlə gəl. Gəl və ölkəmiz üçün oyna. Çalışıb, ən yaxşısına nail olacağıq".

Öz-özümə düşünürdüm: "Razıyam. Sadəcə, icazə ver ki, səninlə gələ bilim". O, nədənsə məni çox inandırmışdı.

Slaven haqqında nə deyə bilərəm ki? Karyeram boyunca rastlaşdığım ən önəmli insanlardan biridir. Sadəcə məşqçi kimi yox, həm də insan olaraq ona böyük hörmət bəsləyirəm. O, fərqlidir, özünəməxsus xüsusiyyətləri bir xarakterdə ortaq məxrəcə gətirib. Ovsunlayır adamı, bir növ həmişə onun üçün oynamaq istəyirsən. Meydana çıxanda da ən yaxşı çıxışını gözləyirsən. İnanır sənə, sonra düşünürsən ki, bu adam mənim üçün hər şey edər.

Ancaq Slavenin qarşısında oturub, dediklərinə qulaq versəm belə, o anda qərar vermək mümkünsüz idi. İsveçrəyə çox şey borclu idim. Ona görə də, bir müddət düşünmək qərarına gəldim. "Bazel"də mövsüm bitmişdi, Almaniyaya - "Şalke"yə getməyimə az qalmışdı, evdə idim. Yığma komanda məsələsi uzun müddət idi ki, üzərimdə yük idi. Almaniyaya getməmişdən öncə mövzunu həll etməli idim. Təmiz beyinlə və bir nöqtəyə fokuslanmış şəkildə yeni klubuma yollanmaq istəyirdim.



Otağımda oturmuşdum, hələ də nə edəcəyimi bilmirdim. Zehnimdə irəli-geri gedərək məni buralara gətirən bütün insanlar barədə düşünürdüm. Birdən ürəyimi dinləmək qərarına gəldim. Telefonu götürdüm və zəng elədim. İlk olaraq isveçrəli məşqçimi yığdım. Karyeram boyunca İsveçrə yığmasında çıxış etmişdim. Bu səbəbdən ilk onunla əlaqə saxlayıb, niyə Xorvatiyanı seçdiyimi açıqlamağım mənim üçün önəm kəsb edirdi. Ona, qərarımın İsveçrəyə qarşı mövqe tutduğum anlamına gəlmədiyini dedim. Bu, sadəcə, Xorvatiya üçün idi. Daha sonra isə Slavenə zəng elədim: "Səninlə gələcəm. Planın bir parçası olmaq üçün hazıram".

Slaven deyirdi: "Bütün Xorvatiya burada olacağın üçün səninlə qürur duyacaq. Başqa şeylər haqda düşünmə, sadəcə, futboldan həzz al".

Bütün bu müddət ərzində qapının digər tərəfində - atamın dəhlizdə addım səslərini eşidə bilirdim. Nəhayət, mən qapını açanda sadəcə dayandı və mənə baxdı. İlk başda ona qərarımı açıqlamadım, o isə seçimim nə olursa olsun, məni dəstəkləyəcəyini dedi. Həmin an hər ikimiz üçün vacib idi.

Əvvəlcə bir balaca zarafat eləmək qərarına gəldim. Dedim: "İsveçrə üçün oynamağa davam edəcəyəm". Atam dilləndi:"Aha...".

"Yox. Xorvatiya millisində oynayacağam" - deyib, gülümsünürdüm. Atamı belə görməmişdim. Gözləri yaşarmağa başladı və onun simasın sel basdı.

Bu gün də Xorvatiya üçün meydana çıxanda atamı və o anı dəfələrlə düşünürəm. Bilirəm ki, atam mənim olduğum yerdə olmaq istəyərdi. Həmçinin bütün xorvatiyalılar eynisini arzulayardı. Ölkən üçün oynamaq və o rəngləri təmsil etmək... - bunu izah etmək üçün sözlər acizdir.

### Qızlarım ən böyük fanatlarımdırlar

Xorvatiyalılar özəl insanlardılar. Komanda yoldaşlarımla azarkeşlərimizin önünə çıxanda matçın bitməsini istəmirik. Bunu necə izah edim, elə bil ki, hamını qucaqlamaq istəyirəm. Oranı tərk etmək ağlından belə keçmir. Hər gün orda olmaq, onların önündə futbol oynamaq fikrinə düşürsən.

Gülməlidi, qutu evə gələndə uşaq idim, ancaq elə indi də formanı əynimdən çıxarmağa niyyətim yoxdu. Formanı əyninə keçirmək təzyiqi bərabərində gətirir. Ancaq məncə, bu təzyiqin ziyanı yoxdu. Bütün dünyaya Xorvatiyanın nələrə qadir olduğunu göstərmək fikrinə düşür, Slavenin və Davor Şukerin yolundan getməyə çalışırsan.

Məncə, hələ də bu yolda davam edirik. Təsnifat mərhələsi çərçivəsində Yunanıstanla keçirdiyimiz oyun son 5-6 il ərzində oynadığımız ən yaxşı matç idi. Paltardəyişmə otağında uşaqlara sadəcə bir şey dedim: "Belə oynamağa davam edək".

Luka Modriçlə bir-birimizə baxırdıq. Daha öncə belə bir şeyi niyə etmədiyimizə inana bilmirdik.

Yəqin ki, oxumuş olarsız, ailəm də fərqli ölkələrdə böyüyüb. Həyat yoldaşım ispandı, iki qızımızı Barselonada böyüdürük. Bu, xüsusi situasiyadı, çünki qızlarım da mən qazanan təcrübəni - başqa ölkədən olmaq və həyatı başqa formada görmək - qazanırlar. Şübhə yox ki, qızlarım ən böyük fanatlarımdırlar.

Turnir başlamamışdan öncə etməli olduğum özəl bir şeyi etdim: sifariş verdim. Bir gün əlimdə qutularla evə gəldim. Qızlarım üçün idi - iki Xorvatiya forması. Mənə dedilər ki, formalarını əyinlərindən çıxarmaq istəmirlər.

Bu hisslər mənə çox yaxşı tanış idi.

*Xüsusi buraxılışı hazırladılar:*
*Anar Əhmədov,*
*Azər Əlizadə*

# İyun ayının yekunu Olimpiya dünyası-nın təqdimatında

## Atletika

Lixtenşteyndə atletika üzrə kiçik ölkələrin Avropa çempionatı keçirilib. Atletimiz Zəkiyyə Həsənova 100 metr məsafəyə qaçış yarışlarında 11.61 saniyə nəticə göstərərək Azərbaycan rekorduna imza atıb və çempionatın gümüş medalını qazanıb.

Zəkiyyə Həsənova 200 metr məsafəyə qaçışda daha yaxşı nəticə göstərib. Belə ki, o, 23.56 saniyə nəticə ilə yarışların qızıl mükafatına sahib olub. Kişilər arasında 110 metr məsafəyə sədlərlə qaçışda atletimiz Rahib Məmmədov 14.06 saniyə nəticə ilə Avropa çempionu olub.

## Gimnastika

İspaniyanın Quadalahara şəhərində bədii gimnastika üzrə 34-cü Avropa çempionatı keçirilib. Yarış Azərbaycan milli komandası üçün uğurlu olub. Qitə birinciliyində fərdi proqramda gənc gimnastlar arasında gedən mübarizədə ümumilikdə 4 alət üzrə finala vəsiqə qazanan təmsilçilərimizdən ən şanslısı olan Arzu Cəlilova topla çıxışı ilə komandamızın hesabına ilk bürünc medalı yazdırıb. Yarışda 17.100 xalla yalnız Rusiya və Ukrayna gimnastlarından geri qalan Arzu öz karyerasının da ən uğurlu nailiyyətinə imza atıb.

Həm halqa, həm də gürzlərlə finalda hakimlər qarşısına çıxan digər gimnastımız Nərminə Səmədova isə müvafiq olaraq 5-ci və 8-ci yerlərdə qərarlaşıb. Lent ilə final mərhələsinə adlayan Yelizaveta Luzan isə yekun nəticədə 6-cı olub.

Böyüklər arasında fərdi yarışlarda isə ölkəmizi Zöhrə Ağamirova və Veronika Hudis təmsil ediblər. Hər 4 alət üzrə ümumi nəticəyə əsasən, Veronika 61.250 xalla 22-ci yerdə qərarlaşıb. 63.200 xal toplayaraq 18-ci olan Zöhrə isə 2019-cu ildə Minskdə təşkil olunacaq ikinci Avropa Oyunlarına vəsiqəni təmin edib.

Növbəti bürünc medalı isə 3 top və 2 iplə icra etdikləri kompozisiyaları ilə xalçanı bəzəyən qrup hərəkətləri komandasından gəlib. Aliyə Paşayeva, Siyana Vasileva, Zeynəb Hümmətova, Diana Doman və Ayşən Bayramovadan ibarət möhtəşəm beşlik füsunkar çıxışları ilə 20.350 xalla fəxri kürsünün üçüncü pilləsinə yüksəlib.

* * *

Qroznıda Çeçenistan Respublikasının idman gimnastikası üzrə açıq birinciliyi keçirib. Beynəlxalq turnirdə Azərbaycanı, habelə Rusiya, Qazaxıstan, Özbəkistan və digər ölkələri təmsil edən ən güclü idmançılar iştirak ediblər. Turnirdə Azərbaycan nümayəndəsi Hüseyn Xəlilov ən yüksək mükafata layiq görülüb. Gənc gimnastımız birinci yeri tutaraq fəxri fərmanla mükafatlandırılıb.

* * *

Milli Gimnastika Arenasında Yeniyetmələrin Buenos-Ayres Olimpiya Oyunlarına lisenziya verən idman gimnastikası üzrə təsnifat yarışları keçirilib. Yarışlarda dünyanın 32 ölkəsindən 96 (52 kişi və 44 qadın) təsnifat yarışlarında mübarizə aparıb. Kişi gimnastlar 16-17 yaş, qadın gimnastları isə 15 yaş kateqoriyasında mübarizə aparıblar.

Ölkəmizi təsnifat yarışlarında Samirə Qəhrəmanova, Ağamurad Qəhrəmanov və Səməd Məmmədli təmsil ediblər.

Oğlanlar arasında çoxnövçülük yarışlarında birinci yeri rusiyalı gimnast Yuri Busse tutub. Sergey Nadin (Rusiya) 80.297 xalla ikinci olub. 3-cü yeri isə 79.332 xalla Balas Kristizan (Hollandiya) tutub. Azərbaycanlı gimnast Səməd Məmmədli 77.931 xalla 5-ci yerdə qərarlaşıb. Beləliklə, gimnastımız Yeniyetmələrin Buenos-Ayres Olimpiya Oyunlarına lisenziyanı təmin edib.

Qızlar arasında yarışlarda qızıl medala 54.299 xalla Ukrayna təmsilçisi Anastasiya Baxinskaya layiq görülüb. Fransalı gimnast Karolann Heduit ikinci, rusiyalı gimnast Darya Belousova isə üçüncü yerə sahib çıxıb.

## Güləş

Rusiyanın Kaspiysk şəhərində Suraqat Asyatilovun xatirəsinə həsr olunmuş gənclər arasında yunan-Roma güləşi üzrə beynəlxalq turnir keçirilib. Turnirdə Rusiya, Azərbaycan, Belarus, Qazaxıstan və Ermənistan komandaları mübarizə aparıblar. Güləşçilərimiz turniri 1 bürünc medalla başa vurublar. Yarışda 60 kiloqram çəki dərəcəsində mübarizə aparan yığma komandamızın üzvü Zaur Nuriyev fəxri kürsüdə yer alıb.

* * *

Gürcüstanın Rustavi şəhərində dünya çempionu Temo Kazaraşvilinin şərəfinə yeniyetmə yunan-Roma güləşçiləri arasında beynəlxalq turnir keçirilib. Güləşçilərimiz turniri 1 qızıl, 3 gümüş və 3 bürünc medalla başa vurublar. Bütün rəqiblərindən üstün olan Qurban Qurbanov (45 kq) turnirin qızıl medalına layiq görülüb. Final görüşündə komanda yoldaşına uduzan Fərhad İsrafilov (45 kq), eləcə də Ruslan Hədisov (65 kq) və Sərxan Məmmədov (110 kq) isə gümüş medalla kifayətləniblər. Bürünc medalları isə yığmamıza Həsrət Cəfərov (51 kq), Xasay Həsənli və Adəm Hacızadə (hər ikisi 60 kq) qazandırıblar.

* * *

Türkiyənin İstanbul şəhərində 23 yaşınadək güləşçilər arasında Avropa çempionatı keçirilib. Azərbaycan güləşçiləri ikisi qızıl olmaqla, ümumilikdə yeddi medal qazanıblar. 92 çəki dərəcəsində yarışan sərbəst güləşçimiz Şamil Zubairov dörddəbir finalda Rusiya, yarımfinalda isə Ermənistan təmsilçisini məğlub edib. İdmançımız finalda Gürcüstan güləşçisi İrakli Mtsituri ilə qarşılaşıb. O, qızıl medal uğrunda görüşdə gürcüstanlı rəqibinə tam üstünlüklə (8:1) qalib gəlib. İkinci qızıl medalın sahibi yunan-Roma güləşçimiz İslam Abbasov (87 kq) olub.

Sərbəst güləşçilərimizdən Əfqan Xaşalov (57 kq) və Ənvərbəy Dalqatov (65 kq) gümüş, Murad Süleymanov (79 kq) bürünc medala sahib olub. Yunan-Roma güləşçilərindən isə Murad Məmmədov (60 kq) və Eltun Vəzirzadə (82 kq) bürünc medala yiyələnib.

* * *



Macarıstanın Gyor şəhərində 2003-2004-cü illər təvəllüdlü yeniyetmələr arasında güləş üzrə Avropa çempionatı keçirilib. Çempionatda iştirak edən kiçik yaşlı yeniyetmələrdən ibarət yığmamızın üzvləri 1 qızıl, 1 gümüş və 4 bürünc medal qazanıblar.

Yunan-Roma güləşçilərimiz 1 qızıl və 1 bürünc medal qazandığı halda, sərbəst güləşçilərimiz 1 gümüş və 3 bürünc medala sahib olublar.

Yunan-Roma güləşi yarışlarında bütün rəqiblərindən üstün olan Elmir Əliyev (52 kq) qızıl medal və Avropa çempionu adını qazanıb. Çempionatda 68 kiloqram çəkidə mübarizə aparan Əli Əlizadə isə bürünc medala yiyələnib.

Sərbəst güləşçilərin mübarizəsində yalnız final görüşündə uduzan Məmməd Əhmədov (57 kq) gümüş medalla kifayətlənib. Bürünc medalları isə yığmamıza Ceyhun Allahverdiyev (44 kq), Əkbər Vəliyev (48 kq) və Varis Mehdizadə (75 kq) qazandırıblar.

## Cüdo

Avstriyada gənc cüdoçular arasında açıq Avropa kuboku turniri keçirilib. 39 ölkədən 580 cüdoçunun mübarizə apardığı yarışda millimiz 21 cüdoçu ilə təmsil olunub. Baş məşqçi Elçin İsmayılovun yetirmələri Leybnits şəhərində təşkil olunan turnirdə 5 medal qazanıblar.

Avropa kubokunda 55 kq çəki dərəcəsində yarışan Rövşən Əliyev yalnız finalda məğlub olaraq gümüş medalla kifayətlənib. Bu çəki dərəcəsində ölkəmizi təmsil edən Balabəy Ağayev və Rəqşan Baxşəliyev bürünc medala sahib olublar. Millimizin üzvləri Ramilə Əliyeva (44 kq) və İbrahim Əliyev (66 kq) turniri üçüncü pillədə başa vurublar.

Beləliklə, gənc cüdoçularımız Leybnits beynəlxalq turnirində 1 gümüş və 4 bürünc medal qazanıblar.

## Boks

Gürcüstanın Kutaisi şəhərində gənc boksçular arasında beynəlxalq turnir keçirilib. Yarışda ev sahibləri ilə yanaşı, Azərbaycan, Rusiya və Ermənistan yığmaları mübarizə aparıblar. Komandamız turniri 5 qızıl və 4 gümüş medalla başa vurub. Bütün rəqiblərinə qalib gələn Vüqar Hüseynov (49 kq), Nəbi İsgəndərov (60 kq), Səbuhi Abışov (64 kq), İsmayıl Yaqubov (91 kq) və Vüqar Səmədov (91 kq-dan yuxarı) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Yalnız finalda məğlub olan Tacəddin Məmmədov (49 kq), Tacəddin Maməliyev (56 kq), Cahid Qurbanov (75 kq) və Rəhim Əhmədli (91 kq-dan yuxarı) isə ikinci yeri tutublar.

Bu göstərici Azərbaycan yığmasını komanda hesabında birinci sıraya yüksəldib. Vüqar Hüseynov isə turnirin ən yaxşı boksçusu seçilib.

## Karate

"Sərhədçi" İdman Olimpiya Mərkəzində "Qara dəniz və Xəzəryanı" ölkələr arasında Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun xatirəsinə həsr olunmuş beynəlxalq karate turniri keçirilib. Gənclər və İdman Nazirliyi və Azərbaycan Milli Karate Federasiyasının birgə təşkil etdiyi yarışda beşdən artıq ölkədən 60-a yaxın klubu təmsil edən idmançılar mübarizə aparıb. Yarışda beş yaşdan böyüklərədək 600-dən artıq karateçi mübarizə aparıb. Turnirdə fərqlənən idmançılara fərdi yarışlarda medal və diplom, komanda çıxışlarında isə kubok təqdim olunub.

## Velosiped idmanı

Bakıda velosiped idmanının BMX növü üzrə dünya çempionatı keçirilib. Yarışda 43 ölkədən 1500-dək idmançı qalib adı uğrunda mübarizə aparıb. Dünya çempionatında elit kateqoriyasında qadınların yarışında Hollandiya idmançıları ilk üç pillədə yer alıblar. Laura Smulders 35.690 saniyəlik nəticə ilə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Merel Smulders gümüş, Cudi Baau isə bürünc medala sahib olublar.

Kişilərin mübarizəsində isə fransalı velosipedçilər fəxri kürsünün ilk iki pilləsinə qalxıblar. Fotofinişə əsasən, 31.426 saniyə nəticə ilə Silvain Andre birinci olub. Onun komanda yoldaşı Joris Daudet ikinci pillədə qərarlaşıb. İlk üçlüyü Braziliya idmançısı Anderson Ezequiel de Souza Filho tamamlayıb.

## Futbol

"Astana Arena"da Qazaxıstan və Azərbaycanın 21 yaşınadək futbolçulardan ibarət yığma komandaları arasında yoldaşlıq oyunu keçirilib. Görüş 1:1 hesabı ilə başa çatıb. Qarşılaşmada komandamızın qolunu Sərtan Taşkın vurub.

## Voleybol

Qadın voleybolçulardan ibarət Azərbaycan millisi Qızıl Avropa Liqasında növbəti qələbəsini qazanıb. Millimiz turnirin V turunda səfərdə Portuqaliya yığmasının qonağı olub. İspaniyalı baş hakim Xose Luis Arrarte Miranın idarə etdiyi oyunda millimiz ilk seti 25:20 hesabı ilə öz xeyrinə başa vurub. İkinci setdə portuqaliyalı voleybolçular hesabı bərabərləşdiriblər - 28:26. Oyunda yüksək əzmkarlıq nümayiş etdirən voleybolçularımız ardıcıl iki setdə 25:11 və 25:15 hesabı ilə qələbə qazanıblar.

Beləliklə, görüş Azərbaycan millisinin 3:1 hesablı üstünlüyü ilə yekunlaşıb.

## Həndbol

Bosniya və Herseqovinanın Tuzla şəhərində 2000-2001-ci illər təvəllüdlü qızlar arasında "Challenge Trophy" yarışı keçirilib. Turnirin finalında Bosniya və Herseqovina həndbolçuları Belçika komandası ilə qarşılaşıblar. Gərgin və maraqlı keçən görüşdə 27:26 hesabı ilə qələbə qazanan meydan sahibləri yarışın qızıl medallarına sahib olublar. Bürünc medal uğrunda keçirilən matçda isə Lüksemburq Estoniyanı minimal hesabla məğlub edib - 22:21.

Beşinci-altıncı yerlər uğrunda qarşılaşmada Moldova Kipri asanlıqla məğlubiyyətə uğradıb - 41:24.

Digər təsəlliverici oyunda isə Azərbaycan yığması Böyük Britaniya millisindən 28:22 hesabı ilə üstün olaraq turniri yeddinci pillədə başa vurub.

## Badminton

Litvanın Kaunas şəhərində "YONEX Lithuanian International 2018" qoşa yarışlarda növbəti görüşlər keçirilib. Edi Reski Dviçayo - Ezmi Qovimuramadhoni cütü ingiltərəli Aleksandr Kuk və Adam Lamla qarşılaşıb. Görüş badmintonçularımızın 2:0 (21-15,21-18) hesablı qələbəsi ilə başa çatıb. Təmsilçilərimiz ardınca polşalı Robert Sibulski - Adam Szolc cütlüyü ilə qarşılaşıblar. Görüş badmintonçularımızın 1:2 (16-21,22-20,15-21) hesablı məğlubiyyəti ilə yekunlaşıb. Qoşa yarışlarda mübarizə aparan Cahid Əlhəsənov - Səbuhi Hüseynov cütü isə danimarkalı Rasmus Espersen - Sebastyan Qronbyerq tandeminə 0:2 (7-21,9-21) hesabı ilə uduzub.

## Səmti müəyyənetmə

Ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə Azərbaycan Səmti Müəyyənetmə İdman Federasiyasının və Türkiyənin Oryentirinq Federasiyasının birgə təşkilatçılığı ilə Ankarada səmti müəyyənetmə idman növü üzrə Heydər Əliyev Kuboku yarışı keçirilib. Azərbaycanın Ankaradakı səfiri Xəzər İbrahim, Azərbaycan Səmti Müəyyənetmə İdman Federasiyasının prezidenti Mirəli Kazımov, federasiyanın vitse-prezidenti Pərvin Şərifov, Türkiyənin Oryentirinq Federasiyasının prezidenti Hacer Akyuz çıxış edərək yarışın əhəmiyyətini yüksək qiymətləndirib, iştirakçılara uğurlar arzulayıblar. Azərbaycanın Ankaradakı səfirliyinin də fəal dəstək verdiyi yarışın qalibləri mükafatlandırılıb.

## Atıcılıq

Beynəlxalq Hərbi İdman Şurasının (CISM) təşkilatçılığı ilə İsveçrənin Tun şəhərində hərbi atıcılıq üzrə 50-ci dünya çempionatı keçirilib.

Çempionatda ölkəmizi iki idmançı - baş leytenant Ruslan Lunyov və Nigar Nəsirova təmsil ediblər.



Ruslan Lunyov tapançadan 25 metr məsafəyə atəşaçma yarışında Estoniya və Çindən olan rəqiblərini üstələyərək qızıl medala layiq görülüb və dünya çempionu adını qazanıb.

## Atçılıq

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Milli Atçılıq Festivalı çərçivəsində ulu öndər Heydər Əliyevin 95 illiyinə həsr olunan atçılığın konkur növü üzrə Heydər Əliyev Kuboku turniri təşkil olunub. Yarış Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı, Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilib.

Binə Atçılıq Mərkəzindəki "Elite Horse & Polo Club"un yaşıl arenasında keçirilən yarışın qalibi "Concorde 57" ləqəbli atla "Sərhədçi" klubunun idmançısı Seyid Musayev olub.

Ümumi mükafat fondu 34 min manat olan turnirdə qalib idmançıya kuboku ARAF-ın prezidenti Elçin Quliyev təqdim edib.

* * *

Binə Atçılıq Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə arena polo üzrə dünya kuboku yarışları keçirilib. Yarışda Azərbaycan, Almaniya, İrlandiya və Hindistanı təmsil edən dörd beynəlxalq polo klubunun komandaları kubok uğrunda mübarizə aparıblar. Azərbaycanın "Elite Horse and Polo Klub" komandası Bakıda keçirilən arena polo üzrə VI Dünya Kuboku yarışlarının finalında Almaniyanın "Rhein Polo Klub Düsseldorf" klubuna 7:6 xal hesabı ilə məğlub olaraq yarışda ikinci yerlə kifayətlənib. Beləliklə, gərgin idman mübarizəsi şəraitində keçən oyunda yarışın qalibi son saniyələrdə vurduqları qol hesabına Almaniya poloçuları olublar.

## Ciu-Citsu

Polşanın Qlivitse şəhərində ciu-citsu üzrə Avropa çempionatı keçirilib. Qitə çempionatında ölkəmiz üç idmançı ilə təmsil olunub.

Komandamızın üzvlərindən Vüqar Cəfərov bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Millimizin digər üzvü Elşən İbişov finaladək inamla irəliləyib. Ancaq həlledici görüşdə uduzan idmançımız gümüş medalla kifayətlənib.

Ruslan Seyidov isə əlindən zədə aldığı üçün yarışı yarımçıq bitirmək məcburiyyətində qalıb.

## Pankration

Serbiyanın Zrenyanin şəhərində pankration üzrə Avropa çempionatı keçirilib. Çempionatda ölkəmizi təmsil edən Ehtiram Dərişov qızıl medal qazanıb. 60 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız böyük əzmkarlıq nümayiş etdirərək qitə çempionatının qalibi adına sahib olub.

## Yelkənli İdman

Haaqada Sxeveningen dəniz limanında "Optimist" sinfi üzrə Avropa çempionatı keçirilib. Yelkənçilərimiz Avropa çempionatında ölkəmizi müvəffəqiyyətlə təmsil ediblər. "Optimist" sinfi üzrə keçirilən Avropa çempionatında Azərbaycanı yelkənçilərimiz Ayla Babayeva, Murad Allahverdi, İsmayıl Kərimov, Murad İsmayılov, Murad Hacızadə, Kristina Kərimova, heyətin rəhbəri Burcu Algon Giorgianni, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız təmsil ediblər. Yelkənli İdman Federasiyasının gənc yelkənçisi Kristina Kərimova Sloveniyada keçirilən "Easter Regatta" adlı beynəlxalq yarışda 139 idmançı arasında 4-cü yerdə qərarlaşaraq yüksək nəticə göstərmişdir.




# “Transfer dünyası”nda hansı hadisələr gözlənilir?

- “Boka Xuniyors”un hücumçusu Kristian Pavonun “Arsenal”da çıxış etmək ehtimalı var. “Topçular”ın yeni baş məşqçisi Unai Emeri Pavon üçün 50 milyon avro ödəməyə hazır olduqlarını bildirib. Müqavilənin 4 illik bağlanacağı gözlənilir.

- “Bavariya”nın yarımmüdafiəçisi Artur Vidal “Atletiko”nun diqqət mərkəzinə düşüb. Münhenlilər çilili futbolçu üçün 15 milyon təklif ediblər.

Xatırladaq ki, “Yuventus”dan “Bavariya”ya keçən Vidal 124 matçda 22 qol vurub.

- SSKA-nın ispan əsilli futbolçusu Mario Fernandes yeni mövsümdən “Valensiya”da çıxış edə bilər. Rusiya millisinin üzvü 2022-ci ili əhatə edən müqaviləyə imza atmaq üçün öz vətəninə yollanacaq. Mario Fernandes “yarasalar”ın heyətində 16 milyon avro qazana bilər.

- “Valensiya”lı Simone Zaza öz vətəninə qayıda bilər. İtaliyalı hücumçunun “Milan”ın heyətində çıxışı gözlənilir. Razılaşmaya əsasən Zazaya 4 illik müqavilə əsasında ilinə 2,5 milyon avro təklif olunub.

- “Real Sosyedad”ın müdafiəçisi Alvaro Odriosola Madrid “Real”ının hədəfindədir. Artıq futbolçu ilə ilkin razılıq əldə olunub. DÇ-2018-də İspaniya millisinin heyətində də çıxış edən Alvaro ilinə 40 milyon avro əldə edəcək.

- Madrid “Real”ının transfer siyasəti bununla bitmir. Kriştianu Ronaldonun “Yuventus”a keçəcəyi barədə şayiə yayıldıqdan sonra “Kral klubu” onun yerini doldurmaq fikrinə düşüb. Çempionlar Liqasının son qalibi yeni ildə daha böyük uğurla imza atmaq üçün PSJ-nin fransalı hucumçusu Kilyan Mbappeni heyətə cəlb etmək istəyir. “Real” rəhbərliyi Mbappe üçün PSJ-yə 272 milyonluq müqavilə təklif edib.

- İtaliya millisinin, “Nitsa”nın keçmiş üzvü Mario Balottelli Çin çempionatında oynamaqdan imtina edib. Hələ ki, “Super Mario”nun hansı klubdan təklif aldığı müəyyənləşməyib. Asiyalılar futbolçu üçün ilə 30 milyon avroluq müqavilə təklif ediblər.

- “Yuventus” rəhbərliyi argentinalı hücumçu Qonzalo İquainin çıxışını “Çelsi”də davam etdirməyinə razıdır. Görünür “Qoca Sinyora” Kriştianu Ronaldunun heyətə cəlb edilməsinə israrlıdırlar. Belə olduğu tərzdə İquain sərbəst şəkildə “zadəganlar”ın heyətinə keçə biləcək. London klubu İquain üçün turinlilərə 60 milyon avro ödəməyə hazırdır.

- “Mançester Siti”nin almaniyalı yarımmüdafiəçisi İlkay Gündoğan yeni mövsümdən etibarən “Barselona”da çıxış edə bilər. Kataloniyalılar Andres İniyestanın gedişindən sonra onun mövqeyini bu futbolçu ilə doldurmaq istəyir. Lakin hələ ki, təklif və müqavilənin qiyməti açıqlanmır.

- “Mançester Yunayted” isveçrəli futbolçu Herdan Şakiri ilə yaxından maraqlanır. Müqavilə əsasında “Stok Siti”nin üzvü olan Şakiri özü də “Qırmızı şeytanlar”ın heyətində çıxış etmək arzusunu gizlətməyib. Əgər tərəflər ortaq məxrəcə gəlsə, onda Şakiri yeni klubu ilə 12 milyon funt sterlinqlik razalışmaya imza atacaq.

- DÇ-2018-də Meksika millisinin heyətində uğurlu çıxış edən qapıçı Gilyermo Oçoanın İtaliya çempionatında çıxışı rəsmiləşə bilər. 32 yaşlı qapıçı İtaliyanın “Napoli” və “Cenoa” klublarının diqqətindədir. Qeyd edək ki, Oçoa hazırda Belçikanın “Standard” klubunun heyətində çıxış edir.

- Yaponiya millisinin hücumçusu Takaşi İnui yeni mövsümdən etibarən yeni klubda çıxış edəcək. Belə ki, asiyalı futbolçu “Eybar” klubundan sonra “Betis”lə razılığa gəlib. 30 yaşlı hücumçunun 3 illik müqaviləsi Tokiodakı İspaniya səfirliyində rəsmiləşəcək.



Qeyd edək ki, bu ərəfədə “Betis”in əsas qapıçısı olan Antonio Adan “Atletiko”ya keçib. 31 yaşlı futbolçu Madrid “Atletiko”sunun Yan Oblakdan sonra ehtiyat qapıçısı olacaq. Razılaşma ilə bağlı məbləğ hələ ki, gizli saxlanılır.

*İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması*

# Hüquq cəmiyyətin açarı, ədalət isə xəzinəsidir

***Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar***

***Heydər Əliyev***

Ömür sürdükcə biz insanlar cəmiyyətin ayrı-ayrı sahələrin də öz fəaliyyətimizi formalaşdırırıq. Bu fəaliyyətlərimiz hüquq müstəvisində, qanunlar əsasında həyata keçir. Davranış qaydaları bir araya toplanır və hüquq normaları əsasında cəmiyyətdə müəyyən mövqe tutmağa səy göstəririk. Sübut olunub ki, hüquq normaları münasibət iştirakçıları üçün qarşılıqlı hüquq və vəzifələr müəyyən edir. Ona görə də hüquq münasibətlərinə şəxslər arasında, onların qarşılıqlı hüquq və vəzifələrində ifadə olunan, hüquqi əlaqə kimi yanaşmalıyıq. Qarşılıqlı hüquq və vəzifəsiz biz heç nəyə nail ola bilmərik.



## Həyat səviyyəsinin layiqli təminatı demokratiyadan xəbər verir

İnsanların hüquq və əsas azadlıqlarının qorunması demokratik idarəetmə və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsinin əsas hissəsidir. Gənc və müstəqil dövlətimiz bütün uğurlara məhz bu yolla nail olub.

1995-ci ildə ulu öndər Heydər Əliyevin müəllifi olduğu və insan hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edən ilk milli Konstitusiyamızın qəbul olunması siyasi sistemin müasirləşdirilməsi və demokratik institutların formalaşdırılması üçün zəmin yaratmışdır. 2002-ci və 2009-cu illərdə referendum yolu ilə Konstitusiyaya bir sıra mühüm əlavə və dəyişikliklər edildi. Bu dəyişikliklər vətəndaşların hüquqlarının və azadlıqlarının daha səmərəli qorunmasına, insanların layiqli həyat səviyyəsinin təmin edilməsinə, demokratiyanın genişlənməsinə və inkişafına yönəlmişdi.

Ölkəmizdə müvafiq hüquqi mexanizmlərin yaradılmasında, o cümlədən mükəmməl qanunvericilik bazasının formalaşdırılmasında Azərbaycan Respublikası Prezidentinin 1998-ci il fevralın 22-də imzaladığı “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” fərmanı xüsusi əhəmiyyətə malikdir. Həmin dövrdə ulu öndərimiz tərəfindən təsdiq edilmiş “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” bu sahədə ilk fundamental sənəd idi. Həmin sənəd aşağıda qeyd olunan işlərin həyata keçirilməsini nəzərdə tuturdu:

- qanunvericilik və institusional islahatların aparılması;
- demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sisteminin, konstitusiya nəzarətinin, insan hüquqları üzrə müvəkkil təsisatının yaradılması;
- hüquq-mühafizə fəaliyyətinin təkmilləşdirilməsi;
- qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyətinin genişlənməsi.

Təsadüfi deyil ki, ilk Dövlət Proqramının qəbul olunduğu gün - iyunun 18-i ölkə başçısının 2007-ci il tarixli sərəncamına əsasən Azərbaycanda İnsan Hüquqları Günü elan edilmişdir. Maraqlıdır ki, məhz həmin tarixdə BMT-nin İnsan Hüquqları Şurası tərəfindən “İnstitusional quruculuq paketi” qəbul edilmişdir. Bu paket çərçivəsində BMT-yə üzv olan dövlətlərdə insan hüquqları sahəsində vəziyyəti qiymətləndirməyə imkan yaradan yeni universal dövri icmal mexanizmi təsis edilmişdir.

## Milli Fəaliyyət Proqramı yeni mərhələnin başlanğıcı oldu

Ölkəmizdə “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında” Konstitusiya Qanununun qəbul edilməsini də xüsusi vurğulamaq lazımdır. Demokratik, hüquqi dövlətin qanununun aliliyi, insan hüquqları və sosial ədalət kimi fundamental əsaslarının möhkəmləndirilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Bu istiqamətdə atılan ən mühüm addımlardan biri də ölkə Prezidenti tərəfindən 27 dekabr 2011-ci il tarixdə “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın qəbul olunmasıdır. Milli Fəaliyyət Proqramı insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət edir. Cəmiyyətimizin inkişafından irəli gələn tələblərin nəzərə alınması baxımından Milli Fəaliyyət Proqramı insan hüquqlarının təmin olunması üzrə görülən ardıcıl tədbirlərin genişləndirilməsində, hüquq-müdafiə mexanizmlərinin təkmilləşdirilməsində yeni mərhələnin başlanğıcı oldu.

Respublikamızda gedən demokratikləşmə prosesi, ictimai həyatın bütün sahələrində aparılan uğurlu islahatlar, beynəlxalq miqyasda əldə olunmuş nailiyyətlər, insan hüquqları sahəsində təkmilləşdirməni və ardıcıl tədbirlərin həyata keçirilməsini vacib edir.

Bu baxımdan, dövlət başçısının 27.12.2011-ci il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın təsdiq edilməsi insan hüquqları sahəsində tədbirlərin davamlılığının təmin olunması məqsədini daşıyır. Eyni zamanda, bu, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının hədəflərinə yönəlmişdir.

Çoxşaxəliliyi və mütəmadiliyi ilə fərqlənən, mühüm və konseptual sənəd olan bu Proqramın hazırlanması prosesində beynəlxalq təcrübədən istifadə olunmuşdur. Bu sənəd həqiqi işlək xarakterə malikdir və hər bir dövlət orqanı qarşısında konkret mühüm vəzifələr qoyur. Mahiyyət etibarilə 2006-cı ildə qəbul olunmuş Milli Fəaliyyət Planı və hazırkı Proqram bir-biri ilə bağlıdır və eyni zamanda, yeni Proqram bir sıra yeniliklərlə zənginləşdirilmişdir. Belə ki, 6 fəsil və 75 bənddən ibarət olan Proqramda aşağıdakı istiqamətlər üzrə konkret qanunverici və praktiki tədbirlər müəyyən olunmuş, onların izahı verilmişdir:

- normativ-hüquqi bazanın təkmilləşdirilməsi;
- əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi;
- dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi;
- insan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə tədbirləri;
- insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq;
- proqramın həyata keçirilməsinin əlaqələndirilməsi, monitorinqi və qiymətləndirilməsi.

Sənəddə qadınların, uşaqların, həbs yerlərində saxlanılan şəxslərin, miqrantların, xarici ölkələrdə yaşayan Azərbaycan vətəndaşlarının hüquqlarının daha etibarlı təmin olunması vacib məsələ kimi göstərilib. Hüquqi şəxslərin cinayət məsuliyyətinin müəyyən edilməsi və digər sahələrdə qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində işlərin görülməsi planlaşdırılır. Bu zaman hüquqi aktların layihələri hazırlanarkən ölkəmizin Konstitusiyasında, tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqları əsas meyar kimi rəhbər tutulur. Həmçinin, onların beynəlxalq hüquqi sənədlərə uyğunluğuna xüsusi diqqət yetirilir.



## Hüquq sahəsində ictimaiyyətin maarifləndirilməsi əsas meyardır

Milli Fəaliyyət Proqramında həssas qruplara aid olan şəxslərin - qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, qadınlar, uşaqlar, ahıllar, əlillər və başqalarının hüquqlarının təmin edilməsində səmərəliliyin artırılması müəyyən olunur. Bu baxımdan, yoxsulluğun azaldılması, məşğulluğun təmin olunması, qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə Milli Fəaliyyət Proqramı kontekstindən yanaşılmalıdır. Proqrama uyğun olaraq dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi, korrupsiya ilə mübarizənin gücləndirilməsi və bu sahədə islahatların həyata keçirilməsi, əhaliyə elektron xidmətlərin göstərilməsinin təşkil edilməsi planlaşdırılır. Hakimlərin və hakimliyə namizədlərin, hüquq-mühafizə orqanları əməkdaşlarının və vəkillərin tədrisində insan hüquqları sahəsində beynəlxalq konvensiyalarla bağlı mövzuların geniş istifadə olunması, habelə vəkillik institutunun gücləndirilməsi mühüm istiqamətlər sırasındadır.

Əhalinin hüquq haqqında fikirlərinin, məlumatlarının inkişaf etdirilməsi, beynəlxalq elmi-tədqiqat və tədris müəssisələri ilə əməkdaşlıq nəzərdə tutulmuşdur. Çünki, hüquq sahəsində ictimaiyyətin maarifləndirilməsi əsas meyardır. İctimaiyyətin maarifləndirilməsi, habelə gündəlik fəaliyyətdə istifadə edilməsi məqsədi ilə proqramın Azərbaycan və ingilis dilində mətnlərindən ibarət toplu böyük həcmdə buraxılmışdır.

Ölkəmizdə informasiya texnologiyalarının inkişafı və səmərəli tətbiqi milli mətbuatın tərəqqisində mühüm rol oynamaqdadır. Nəşr olunan qəzet və jurnallarla yanaşı, elektron informasiya şəbəkəsi də inkişaf etdirilməkdədir. Müvafiq dövlət qurumları, xüsusilə də Azərbaycan Respublikasının Prezidenti yanında KİVDF və Mətbuat Şurası tərəfindən jurnalistlərin peşəkarlığının artırılmasına istiqamətlənmiş treninq və seminarlara cəlb edilməsi də bu sahədə öz səmərəsini vermişdir. Dövlətimiz media hüquqlarının müdafiəsini, söz və ifadə azadlığının təmin olunmasını daim diqqətdə saxlayır. Jurnalistlərə qarşı kobud rəftar halları da hər zaman nəzarətdə saxlanılır, media nümayəndələrinin vəziyyətinə xüsusi diqqətlə yanaşılır. Media hüquqlarının etibarlı müdafiəsi, fikir, söz və ifadə azadlığının səmərəli təmin olunması istiqamətində tədbirlər davam etdirilməkdədir. Jurnalistlərə qarşı kobud rəftar halları yolverilməz sayılır və belə hallara yol verən məmurlar qanun çərçivəsində məsuliyyətə cəlb olunurlar.

Əlbəttə, jurnalistlər də qanunun tələblərinə əməl etməli, öz yazılarında həqiqətə uyğun olmayan məlumatların yayılması kimi hallara yol verməməlidirlər. Bununla yanaşı, hər bir jurnalist cəmiyyətə dəqiq, qərəzsiz informasiyanın çatdırılması yönümündə çalışmalı, bu istiqamətdə təlim və treninqlər davam etdirilməlidir.

Milli Fəaliyyət Proqramında əhalinin müxtəlif qruplarının, o cümlədən qadınların, uşaqların, ahılların, əlillərin, qaçqın və məcburi köçkünlərin, məhkumların hüquqlarının daha səmərəli müdafiəsi məqsədi ilə müvafiq dövlət orqanları üzərinə mühüm vəzifələr qoyulub. Milli Fəaliyyət Proqramında insan hüquqlarının müdafiəsi istiqamətində daha geniş tədbirlər nəzərdə tutulur. Bu proqramın icrasına daha çox dövlət qurumları cəlb olunub.

Eşitmə qüsurlu insanlar da əhalinin ən kövrək nümayəndələrindəndirlər. Onların da hüquları ciddi qorunur. Bu hüquqlardan biri onların informasiya almaq haqlarıdır. Əvvəllər televiziya kanallarında eşitmə qüsuru olan insanlar üçün loqopedlər var idi. Həmin loqopedlər xəbərlər proqramında ekranın aşağı hissəsində xəbərləri eşitmə qüsurlu insanlara çatdırırdılar. Təəssüf ki, loqopedlərin iştirak etdiyi proqramlar ləğv olunub. Hər kəs kimi, eşitmə qüsurlu insanların da gün ərzində baş verən proseslərdən, xəbərdar olmaq hüququ var və bu hüquqlar bərpa olunmalıdır.

***Azər Əlizadə***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 22 iyul Milli Mətbuatın yaranmasının 143 illiyi ilə əlaqədar Elan etdiyi müsabiqəyə təqdim etmək üçün*

DÜNYA İDMANI



# Qeyri-ənənəvi idman yarışları

*Dünyada ənənəvi idman növlərindən başqa əyləncəli, insanlara maraqlı anlar yaşadan qeyri-adi yarışlar da keçirilir. "Olimpiya dünyası" 12 müxtəlif sayda belə yarışı oxucularına təqdim edir:*

### 1. Pendir yuvarlama

Hər il İngiltərədə qəribə festival keçirilir. Bu festivalda təxminən 4 kilo ağırlığında bir pendir hündür bir təpədən aşağı atılır. Sonra iştirakçılar pendirə çatmaq üçün onun arxasınca qaçmağa başlayırlar. Pendirin saatda 110 km-ə qədər bir sürətə yuvarlanmasını nəzərə alsaq, iştirakçıların bu pendiri tutmasının nə qədər real olması şübhəlidir. Pendirə ilk çatan insan yarışı qazanmış olur. Amma bu müsabiqədə iştirak etməmişdən əvvəl yaxşıca düşünmək lazımdır. Çünki burada zədələnmə ehtimalı çox yüksəkdir.









### 2. Şahmat boksu

Hollandiyalı artist Lep Rupinghin ixtira etdiyi bu oyun, maraqlı ideyanın təzahürüdür. Oyunun 6 turu şahmat, 5 turu boks olmaq üzrə 11 turdan ibarətdir. Rəqibinizlə rinqdə və ya şahmat masasında qarşılaşırsınız. Bu oyun həm fiziki, həm də zehni qabiliyyəti yoxlamaq üçün gözəl bir fürsətdir!





### 3. Soxulcan toplama

Soxulcan cazibəsi rəqiblərin 3 $m^2$ bir yerdən 30 dəqiqə içində yerdən nə qədər soxulcan çıxara biləcəklərini müəyyənləşdirən bir yarışdır. Bu yarış üzrə dünya rekordu 2009-ci ildə yerdən 570 dənə soxulcanı çıxaran 10 yaşlı Sofiya Smitə məxsusdur.

### 4. Şar futbolu

Bu oyundan yalnız oynayanlar deyil, eyni zamanda izləyənlər də çox böyük zövq alırlar. Oyunçuların bədənlərinin üst hissəsi şar ilə örtülüdür. İlk dəfə 2011-ci ildə Norveçdə oynanılıb. Oyunda hər komandada beş nəfər olmaqla iki komanda yarışır. Eyni zamanda hər bir komandada mütləq bir qadının olması da oyunun digər qaydalarındandır.

### 5. Həyat yoldaşını daşımaq

Bu yarış hər il Finlandiyada keçirilir. Sonkajarvi qəsəbəsində kişi yarışçılar həyat yoldaşlarını çiyinlərində apararkən maneəni dəf etməlidirlər. Rəvayətlərə görə, soyğunçu Ronkainen və dəstə üzvləri, yaxınlıqdakı kəndlərdən ərzaq və qadınları məhz bu şəkildə oğurlayıblar. Yarışın mükafatı isə həyat yoldaşının çəkisi qədər pivədir.

### 6. Nəfəs borusu ilə suya dalmaq

Bu yarış özünəməxsusluğu ilə diqqət çəkir. Hər il avqust ayında çoxsaylı üzgüçü nəfəs borusu ilə suyun dibinə dalırlar. İştirakçılar maneələri dəf edərkən bildiyimiz üzgüçülük texnikalarından istifadə etməməlidirlər.

### 7. Bambuk drift yarışı

Bambuk drift yarışı, Çinin Guizhou ştatında geniş yayılıb. Rəqiblər təxminən 7 metr uzunluğunda bir bambukun üzərində dayanırlar. Əvvəllər bambukdan nəqliyyat vasitəsi kimi istifadə olunurdu. Günümüzdə isə onların yerini daha davamlı olan yaşıl dirəklər alıb.

### 8. Təhlükəli ütüləmə

Təhlükəli ütüləmə açıq havada keçirilir. Yarış iştirakçıları təhlükəli vəziyyətdə - paraşütlə tullanarkən, xizəklə sürüşərkən, dağın təpəsində paltar ütüləməyi bacarmalıdırlar.

### 9. Ayaq güləşi

Bu qeyri-adi idman növündə iki nəfər bir-birinin ayaqlarını yerə vurmağa çalışır. Əvvəlcə sağ, sonra sol ayaqla yarışan iştirakçılar 3 turda yarışırlar. Bu qəribə yarış 1976-cı ildən yalnız İngiltərədə keçirilir.

### 10. Kötük qaytarma

İki nəfərin üzən bir kötükdə durmağa çalışdığı bu yarışda məqsəd qarşı tərəfin müvazinətini itirməsini təmin etməkdir. İştirakçılar bir-birilərini kötükdən salmaq üçün müxtəlif yollara əl atırlar: kötüyü təpikləyir, istiqaməti dəyişdirirlər. Yarışda iştirakçıların bir-birlərinə toxunmaları və ortadakı səddi keçmələri yasaqdır. Uğur qazanmaq üçün ayaqların güclü olması əsas şərtdir.

### 11. Sualtı boks

Qəribə olsa da, bu yarış növü boksa başlamaq istəyən, amma sərt yumruqlardan çəkinənlər üçün gözəl bir alternativdir. Boksçular üç raund mübarizə aparırlar. Hər raund bir dəqiqədir. Bu müddət ərzində idmançıların nəfəslərini tutması şərtdir. İki raund arasında isə onlara nəfəs fasiləsi verilir.

### 12. Qoyunları saymaq

Son illər bu çempionat Avstraliyada olduqca populyardır. Burada təxminən 400 qoyun bir anda sərbəst buraxılır və 10 nəfər iştirakçıdan onların sayını bilmək tələb olunur. Qoyunların sayına ən yaxın proqnozu verən şəxs yarışmanın qalibi olur.

*Səadət Hakıyeva*



## "Maklaren"in direktoru Erik Bulye istefa verib

Formula-1 yarışları üzrə "Maklaren"in direktoru Erik Bulye vəzifəsini tərk edib.

"Fəxr edirəm ki, son bir neçə ildə bu gözəl komanda ilə işləmişəm. İndi etiraf edirəm ki, istefa verməyin vaxtı gəlib çatıb. Bütün komandaya mövsümün sonrakı yarışlarında uğurlar arzu edirəm", - deyə Erik Bulye bildirib.

Direktorun getməsi ilə təbii ki, komandada struktur dəyişiklikləri olacaq.

## İdmançılar 10 gün mağarada köməksiz qaldılar

Tailandda iyunun 23-də girdikləri mağarada sel səbəbindən köməksiz qalan uşaq futbolçular və onların məşqçiləri yoxa çıxandan 10 gün sonra sağ tapılıblar.

İngilis dalğıcların tapdığı 12 uşaq və 1 məşqçinin yaşaması xəbəri bütün dünyada böyük əks-səda doğurub. Ancaq onların xilas edilməsində bəzi problemlər yaşanıb. Belə ki, mağarada suyun səviyyəsi yüksək olduğundan xilasedicilər qarşısında iki seçim var: ya uşaqlara üzmək öyrədib mağaradan çıxarmalıdırlar, yaxud da 4 ay suyun çəkilməsini gözləməlidirlər. Birinci halda uşaqların yeraltı gizli kanallarda boğulma, ikinci halda isə 4 ay ərzində yenidən leysan yağma və suyun səviyyəsinin artması ehtimalı var. Hələlik isə həyatda qalmaları üçün onlara yüksək proteinli qidalar verilir.

Futbolçular 11-16 yaş qrupuna aiddirlər. Girdikləri mağarada qəfil selə yaxalanan yeniyetmələr su tutmayan bölmələrə keçməyi bacararaq həyatda qala biliblər.



## Lebron Ceyms İtaliyada istirahət edir

Əfsanəvi basketbolçu Lebron Ceyms ailəsi ilə birlikdə İtaliyada istirahət edir. "Leykers" klubunun yeni ulduzu istirahət üçün böyük bir yaxta seçib.

Bundan əvvəl "Klivlend"də oynayan Lebron Ceyms həftənin şənbə günü Los-Anceles şəhərində "Leykers" klubunun prezidenti Mecik Consonla görüşüb. Bazar günü tərəflər arasında razılıq əldə edildikdən sonra 153 milyon ABŞ dolları məbləğində müqavilə imzalanıb. Bundan sonra basketbolçu Portofinoya, ailəsinin yanına istirahətə gedib.

## Roje Federerin fanatı istəyinə çatdı

Tanınmış tennisçi Roje Federer Londonda keçirilən Uimbldon turnirində iştirak edir. Onun fanatlarının sayı kifayət qədərdir.

Roje Federerin fanatlarından biri olan kiçikyaşlı qız ondan bandanasını (baş sarğısı) istəyib. Mərkəzi kortda azarkeşlərin arasında həmin qızın əlində tutduğu plakatda bu sözlər yazılmışdı: "Roje, çox xahiş edirəm, bandananızı mənə verə bilərsinizmi?!".

Matçdan sonra həmin qız avtoqraf alanlara qoşularaq öz istəyinə nail olub. Rojer Federer tamaşaçıların alqışları altında bandanasını fanatına hədiyyə edib.

Məşhur tennisçi sonra zarafatla deyib: "Qorxuram ki, bundan sonra saatımı, maşınımı, raketimi, köynəyimi istəsinlər, qoy istəsinlər də".

Respublika Yüksək İdman Ustalığı Məktəbinin direktoru Cəfər Hümbətov 11 saylı Uşaq-Gənclər İdman Məktəbinin direktor müavini Əlövsət Əliyevə, anası

**Səmayə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir. Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT! Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19